RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 134 (9301) 25 İYUN 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



100




# İlham Əliyev güclü və modern Silahlı Qüvvələr yaradıb

**Qafqazda ən güclü orduya malik olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır.**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər isə Silahlı Qüvvələrin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində bu gün Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən silahlı qüvvələr kimi düşmənlərə gözdağı verir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Tarixinin ən qüdrətli Azərbaycanı İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü bir daha dünyaya nümayiş etdirib. Müharibədən keçən iki il yarım ərzində isə aparılan islahatlar və yeni silahlı birləşmələrin yaradılması, silahlar və müasir texnika ilə ordumuzun təchiz olunması nəticəsində daha da böyük hərbi potensial formalaşıb.

Bu gün Silahlı Qüvvələrin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından Azərbaycan nümunəvi dövlət olaraq qəbul edilir. Vətən maharibəsindən sonra isə ordunun daha da modernləşməsi istiqamətində qarşıya yeni vəzifələr, tələblər qoyulub və bu gün həmin proses uğurla davam etdirilir.

Ali Baş Komandan İlham Əliyev tərəfindən ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

→ 4

## "Heydər Əliyev adına təqaüd"ün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 (yüz) nəfər tələbə üçün "Heydər Əliyev adına təqaüd" təsis edilsin.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən təqaüd Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına 3000 (üç min) manat məbləğində birdəfəlik verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Milli Kitabxanası yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, qarşıya qoyulan vəzifələrin öhdəsindən həmişə layiqincə gələrək ötən müddət ərzində cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış, ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir.

Özünəməxsus memarlıq üslubuna malik əzəmətli binada yerləşən Milli Kitabxana bu gün fəaliyyət dairəsini daha da genişləndirərək milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlər gerçəkləşdirir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində daim təkmilləşdirən Milli Kitabxana hazırda dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin mədəni-ictimai həyatında rolunu və kitabxana işinə töhfələrini nəzərə alaraq, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## Ordu vətənin dirəyidir

Erməni-daşnak qüvvələrinin törətdiyi bu azğınlığın qarşısının alınmasında xalqımızın hərbi köməyə ehtiyacı var idi. 1918-ci il iyunun 4-də Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi imzalandı. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacinski, Türkiyə tərəfindən xarici işlər naziri Xəlil bəy və Qafqaz cəbhəsinin baş komandanı Vahib Paşa imzaladılar. İmzalanmış həmin müqaviləyə əsasən, Türkiyə tərəfindən Azərbaycana lazımi hərbi yardım göstərildi. Azərbaycan-Türkiyə qoşun hissələrinin birgə səyi nəticəsində əsasən ermənilərdən ibarət olan qırmızı ordunun I Qafqaz korpusunun Gəncəyə doğru hücumunun qarşısı alındı. Azərbaycan-Türkiyə birləşmiş qoşunları ilə Bakı XKS-nin qoşunları arasında ilk döyüş iyunun 16-18-də Göyçaydan bir qədər şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında baş verdi.

→ 5

## Akira Amarinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Akira Amari "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## Ödəniş sistemlərinin fəaliyyəti qanunla tənzimlənəcək

**İyunun 24-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova iclasda 20 məsələnin müzakirə ediləcəyini söyləyib.**



O qeyd edib ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvünün təyin edilməsi haqqında Milli Məclisin qərar layihəsidir.

Spiker bildirib ki, ölkə Prezidentinin təqdimatı ilə iyunun 9-da "Məhkəmə-Hüquq Şurası haqqında" qanunda dəyişiklik edilib. Bununla əlaqədar olaraq Məhkəmə-Hüquq Şurasının təşkili qaydası dəyişdirilib.

→ 2

## Regionun yenilməz gücü

### Ordumuz təhlükəsizliyimizin ən möhkəm dayağıdır

Ölkəmizdə ordu quruculuğu digər dövlətlərə hər hansı təhlükə yaratmaq məqsədinə xidmət etmir. Lakin otuz il ərzində Ermənistan işğalının qurbanı olan Azərbaycan bu gün də bəzi dövlətlərin təhdidləri ilə üzləşir. Təkcə Qarabağda 10 min nəfərlik erməni quldur dəstəsinin mövcudluğu bunun bariz nümunəsidir. Yəni ordu quruculuğunun möhkəmləndirilməsi əsasən müdafiə xarakteri daşıyır.

Azərbaycan bu gün artıq orta güc dövləti çərçivəsindən çıxaraq öz hərbi gücünü daha böyük siyasi coğrafi məkana proyeksiya edir.

→ 4

## Qiymətləndirmə məqsədilə yaradılan komissiya Söyüdlü kəndində kompleks monitorinqləri davam etdirir

**Gədəbəy rayonunun Söyüdlü kənd sakinlərinin sağlamlığının və ətraf mühitin qorunması sahəsində vətəndaşların müraciətlərinin araşdırılması məqsədilə müvafiq komissiya tərəfindən ərazidə kompleks monitorinqlər davam etdirilir.**

Komissiyadan AZƏRTAC-a bildirilib ki, hazırda ərazidə aidiyyəti qurumlar tərəfindən ətraf mühitə təsirlər qiymətləndirilir, tibbi sağlamlıq nöqteyi-nəzərindən xəstəliklərin statistikası və dinamikası təhlil edilir, tibbi müayinələr keçirilir. Pay torpaqlarında və örüş sahələrində məhsuldarlığa, mal-qaraya neqativ təsirlər öyrənilir, su və torpaq nümunələri götürülərək analizlər aparılır, atmosfer havasının keyfiyyəti yoxlanılır. Aparılan kompleks monitorinqlərin nəticələri təhlil olunacaq və təkliflər hazırlanaraq Nazirlər Kabinetinə təqdim ediləcək.

Xatırladaq ki, Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sərəncamı ilə komissiya yaradılıb, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev komissiyanın sədri təyin edilib. Komissiyanın tərkibinə səhiyyə nazirinin müavini, fövqəladə hallar nazirinin müavini, kənd təsərrüfatı nazirinin müavini, Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi və Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı daxildirlər.

## Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri Laçında səfərdə olublar

**Yenidən qurulan, abadlaşan Laçın bu dəfə əcnəbi diplomatları qonaq edib. Belə ki, Azərbaycanda akkreditə olunmuş 33 ölkədən, 10 təşkilatdan ümumilikdə 60-a yaxın diplomat və hərbi attaşe, eləcə də onların ailə üzvləri iyunun 24-də Laçına səfər ediblər.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə xarici diplomatlar Ermənistanla Azərbaycan arasında Laçın sərhəd-gömrük buraxılış məntəqəsinin yerləşdiyi körpüyə gəliblər. Onlara Ermənistanın bir sərhədçimizin yaralanması ilə nəticələnən son təxribatları haqqında məlumat verilib.

→ 3

## Milli Məclisin iclasında

# Ödəniş sistemlərinin fəaliyyəti qanunla tənzimlənəcək





### N.A.Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 2005-ci il 13 dekabr tarixli 7-IIIKQD nömrəli Konstitusiya Qanununun I hissəsinin 4-cü bəndinə və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Nizami Abdulla oğlu Səfərov Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

*Əvvəli 1-ci səh.*

O, hazırda Məhkəmə-Hüquq Şurasında Milli Məclisi deputat Nizami Səfərovun təmsil etdiyini deyib və qanunda edilən dəyişikliyə əsasən, Məhkəmə-Hüquq Şurasının tərkibinin yenidən formalaşdırıldığını diqqətə çatdırıb. Sahibə Qafarova Milli Məclis tərəfindən Şuranın üzvlüyünə deputat Nizami Səfərovun namizədliyinin irəli sürüldüyünü bildirib və məsələni səsə qoyub.

N.A.Səfərovun Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü təyin edilməsi haqqında Milli Məclisin qərar layihəsi qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti 5 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Komitə sədri sənəd barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini deyərək bildirib ki, qanun Azərbaycan Respublikasında kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik sənayedə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair ümumi tələbləri müəyyən edir və Yerətrafı orbitlərdə, Ay və digər səma cisimləri və onların orbitləri daxil olmaqla, kosmik fəzada milli fəaliyyətə aid edilən münasibətləri tənzimləyir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti 4 məsələnin - "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu, məzmun və mahiyyətcə bir-birinə yaxınlığını bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, sənədə heç bir əlavə və dəyişikliyin edilmədiyini deyərək olduğu kimi səsə qoyulmasını xahiş edib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli digər iki məsələni - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (üçüncü oxunuş) və "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələrini diqqətə çatdırıb. O, hər iki layihənin "Tullantılar haqqında" qanunla əlaqədar olduğunu deyib. Bildirib ki, təklif olunan dəyişikliklərdə həmin qanunun tələblərinin pozulmasına görə inzibati məsuliyyət və utilizasiyaya gedən nəqliyyat vasitələrinin uçotdan çıxarılması məsələsi öz əksini tapıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. O, bu layihənin "Tullantılar haqqında" qanundan irəli gələrək hazırlandığını, əvvəlki iki oxunuş zamanı əlavə heç bir dəyişikliyin edilmədiyini bildirib.

4 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Parlamentin spikeri Sahibə Qafarova növbəti məsələnin - "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin də məzmun və mahiyyətinə görə bundan əvvəl qəbul edilən qanunlara yaxın olduğunu və uyğunlaşdırma xarakteri daşıdığını bildirib. O bu sənədin müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli qanun layihəsini təqdim edərək bildirib ki, bu sənəd "İstehsalat və məişət tullantıları haqqında" qanunun adının dəyişdirilməsi ilə əlaqədar hazırlanıb. Qanunun müvafiq maddəsində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, gündəliyin digər 6 məsələsi ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxın olan, ikinci oxunuşda təqdim edilən qanun layihələridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş), Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi (ikinci oxunuş), "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələrini təqdim edib. Bildirib ki, qanunlara edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi sahəsində tənzimləmənin təkmilləşdirilməsi, fəaliyyətin effektiv və səmərəli şəkildə idarə edilməsi, avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yükdaşıma xidmətlərinin keyfiyyətinin və təhlükəsizliyinin artırılması, əməyin mühafizəsinin təmin olunması, bu fəaliyyət növlərinə ölkəmizdə tətbiq edilən icazələrin təkmilləşdirilməsi məqsədi daşıyır. Qeyd olunub ki, qanun layihələrində həm ölkədaxili, həm də beynəlxalq yük daşımalarına nəzarətin təkmilləşdirilməsi nəzərdə tutulur. Sərnişin və yük daşımalarında rəqəmsal alətlərdən istifadə qaydaları da öz əksini tapır.

Parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (ikinci oxunuş) və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələrinə dair məlumat verib. Bildirib ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyəti və sanksiyaları nəzərdə tutur. "Yol hərəkəti haqqında" qanunda nəzərdə tutulan dəyişikliklər isə "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırma məqsədi daşıyır.

Tahir Mirkişili rəhbərlik etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu iki qanun layihəsi barədə müsbət rəy verdiyini söyləyib.

Müzakirələr zamanı deputatlar Fazil Mustafa, Sevil Mikayılova, Müşfiq Məmmədli fikir və qeydlərini diqqətə çatdırıblar. İclasda iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin yekununda təqdim olunan bu 6 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 7 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin fəaliyyəti dövründə, o cümlədən 44 günlük Vətən müharibəsindən sonra minalardan təmizlənmiş ərazilər, aşkar edilmiş mina və partlayıcı hərbi sursat ilə əlaqədar statistik göstəriciləri diqqətə çatdırıb. Deputat müasir şəraitdə minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhalinin, hərbçilərin, bərpa və quruculuq işləri ilə məşğul olan əməkdaşların həyat və sağlamlığına, keçmiş məcburi köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz qayıdışına ciddi təhdid yaratdığını söyləyib.

Əsasnaməyə görə, "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə minatəmizləmə fəaliyyətinin təşkili, təkmilləşdirilməsi, inkişafı və möhkəmləndirilməsi sahələrində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

Deputatlar Bəhruz Məhərrəmov və Hikmət Məmmədov məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti 3 məsələnin də yeni medalların təsis edilməsi ilə bağlılığını və ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu deyib. O, bu məsələlərin - "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi, "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi və "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bu 3 qanun layihəsi barədə məlumatı diqqətə çatdırıb. Bildirib ki, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli Fərmanına uyğun olaraq Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilərək onun əsasında üç dövlət orqanı - Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi yaradılıb. Qeyd edilib ki, müzakirəyə çıxarılan layihələrdə adıçəkilən qurumların hər birinin ayrılıqda əməkdaşlarının müvafiq medallarla təltif edilməsi nəzərdə tutulur. Təqdim olunan sənədlərdə təltif edilən şəxslərin dairəsi, təltif edən orqan, medalların taxılma qaydası və təsviri müəyyən edilir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, layihə ölkə Prezidentinin müvafiq fərman və sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin və "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə əlaqədar nəzərdə tutulmuş ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Komitə sədri diqqətə çatdırıb ki, 9 fəsil, 68 maddədən ibarət olan qanun ödəniş sistemlərinin, ödəniş xidmətlərinin, ödəniş təşkilatlarının, elektron pul təşkilatlarının və ödəniş sistemi operatorlarının fəaliyyətinin hüquqi əsaslarını və bu sahədə tənzimləmə və nəzarətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir. Sənəddə əsas anlayışlar, ödəniş xidmətlərinin növləri, ödəniş xidməti təchizatçılarının, ödəniş təşkilatının və elektron pul təşkilatının fəaliyyəti ilə bağlı məsələlər müvafiq maddələrdə öz əksini tapıb. Habelə pul vəsaitlərinin təhlükəsizliyinin təmin olunması, mühasibat uçotu və maliyyə hesabatlarının aparılması, müraciətlərə baxılması və mübahisələrin həllinə dair qaydalar müəyyənləşdirilir.

Qeyd edilib ki, layihədə elektron pulla bağlı tənzimləmə prosesi, açılmış ödəniş hesabları və ödəniş xidmətlərinin göstərilməsi ilə bağlı məlumatlandırma şərtləri, ödəniş sərəncamının icrası və tərəflərin məsuliyyəti ilə əlaqədar məqamlar ehtiva olunur. Bununla yanaşı, layihədə ödəniş sistemlərinin təşkili qaydaları, hesablaşmaların aparılması, lisenziyalaşdırma və qeydiyyata dair tələblər, elektron pul təşkilatları və operatorların müqavilə əsasında fəaliyyəti, ödəniş təşkilatının və elektron pul təşkilatının filial və nümayəndəliyinin açılması, xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının yerli filialının lisenziyalaşdırılması, hesab üzrə məlumat xidməti təchizatçısının reyestrə daxil edilməsi və çıxarılması, nəzarət subyektlərinin rəhbərlərinə qarşı tələblər, dövlət tənzimlənməsi və nəzarəti ilə bağlı meyarlar əks olunub.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son iki məsələsinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə yaxınlığını bildirib.

Sonra komitə sədri Tahir Mirkişili "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. O, 10 fəsil, 59 maddədən ibarət qanun layihəsinin Azərbaycan Respublikasında dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını və qaydalarını müəyyən etdiyini deyib. Sənədin hazırlanması zamanı qabaqcıl beynəlxalq təcrübənin nəzərdən keçirildiyini söyləyib.

Bildirilib ki, qanunda dövlət satınalmalarının əsas prinsipləri, təchizatçıların satınalmalarda iştirakı, saxtakarlıq hallarının aradan qaldırılması, məxfiliklə bağlı qaydalar müəyyənləşdirilir. Qanun layihəsinin müvafiq maddələrində satınalmalara cəlb olunan vəzifəli şəxslərin davranış kodeksi, təchizatçılarla danışıqların və görüşlərin keçirilməsi, satınalan təşkilatla təchizatçıların bir-birinə göndərdikləri sənədlərin və məlumatların təqdim edilməsi formaları, dövlət satınalmalarına nəzarətin xüsusiyyətləri öz əksini tapıb.

Qeyd olunub ki, layihədə satınalmanın yalnız portal vasitəsilə həyata keçirilməsi, təkliflərin cəlb edilməsi barədə elanların portalda yerləşdirilməsi, məxfi məlumatlarla əlaqəli satınalmaların və bu satınalmalarla bağlı prosedurların kağız daşıyıcılarında həyata keçirilməsi nəzərdə tutulub. Sənəddə habelə satınalmaların planlaşdırılması və mərhələləri, satınalma komissiyasının formalaşdırılması və komissiyanın məsuliyyəti, təchizatçıların uyğunluq göstəriciləri, təkliflərin qiymətləndirilməsi, satınalmaya dair hesabatın hazırlanması və satınalma müqaviləsinə dair digər tələblər, o cümlədən satınalmanın dayandırılması şərtləri göstərilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Energetika haqqında", "Büdcə sistemi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair bildirilib ki, adları çəkilən qanunlara "Dövlət satınalmaları haqqında" yeni qanun layihəsi ilə əlaqədar uyğunlaşdırma xarakterli bəzi düzəlişlər təklif olunur.

Komitə sədri Zahid Oruc, deputatlardan Razi Nurullayev, Vahid Əhmədov, Qüdrət Həsənquliyev, Aydın Hüseynov, Rüfət Quliyev, Etibar Əliyev təqdim olunan məsələlər barədə fikirlərini və bəzi qeydlərini səsləndiriblər.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iki gündən sonra xalqımız Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününü böyük qürur hissi ilə qeyd edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq tarixinə əbədi həkk olunmuşdur. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilmiş, əzəli və tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən xilas olunmuşdur.

Spiker diqqətə çatdırıb ki, tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını biz heç zaman unutmayacağıq.

Milli Məclisin Sədri bildirib ki, bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. O, Azərbaycan Silahlı Qüvvələrinin qarşıdakı illərdə daha da inkişaf edəcəyinə və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcəyinə əminliyini ifadə edib.

Spiker Silahlı Qüvvələr Günü münasibətilə müzəffər Ali Baş Komandanı, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularımızı ürəkdən təbrik edib, Azərbaycanın milli maraqlarının və hərbi təhlükəsizliyinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Baş nazirin müavini Əli Əhmədov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktorunun müavini ilə görüşüb



**Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov iyunun 24-də Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktorunun müavini Hasan Kleyb ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında uğurlu tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Azərbaycanda əqli mülkiyyət sahəsində aparılan ardıcıl islahatlar barədə məlumat verilib. Dövlətimizin başçısı tərəfindən iqtisadiyyatın davamlı inkişafının, biliklərə əsaslanan cəmiyyətin formalaşdırılmasının və insan kapitalına investisiyaların qoyuluşunun başlıca strateji məqsədlərdən biri kimi müəyyənləşdirildiyi vurğulanıb.

Görüş əsnasında həmçinin Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Ceyhun Bayramov ÜƏMT-nin Baş direktorunu erməni vandalizmi barədə məlumatlandırıb



**İyunun 24-də xarici işlər nazir Ceyhun Bayramov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktorunun müavini Hasan Kleybin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə əqli mülkiyyətin qorunması sahəsində beynəlxalq tərəfdaşlıq, eləcə də Azərbaycanla ÜƏMT arasındakı mövcud əməkdaşlıq əlaqələri müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında geniş əməkdaşlıq əlaqələrinin olduğunu qeyd edərək əqli mülkiyyət üzrə işlərin təkmilləşdirilməsi sahəsində ölkəmizdə həyata keçirilən fəaliyyətin bir sıra istiqamətləri barədə məlumat verib. Nazir diqqəti eyni zamanda Ermənistan tərəfindən ərazilərimizin 30 illik işğalı dövründə yer adlarımızın dəyişdirilməsi, Azərbaycana məxsus olan mədəni sərvətlərin və mədəni irs obyektlərinin Ermənistan tərəfindən talan edilməsi və ya adlarının dəyişdirilməsi, Azərbaycana məxsus digər mədəni irs nümunələrinin Ermənistan tərəfindən mənimsənilməsinə yönəldib.

Nazir eyni zamanda müqabil tərəfi postmünaqişə dövründə Azərbaycan tərəfindən aparılan intensiv yenidənqurma və bərpa prosesləri barədə məlumatlandırıb. Məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması prosesinin başlamasını qeyd edərək bu prosesə başlıca əngəl kimi Ermənistan tərəfindən basdırılmış mina təhlükəsindən danışıb.

Müqabil tərəf öz növbəsində Azərbaycanla təşkilat arasındakı mövcud əməkdaşlıqdan məmnunluğunu, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin bir sıra ölkələrin bu sahədə fəaliyyəti üçün nümunə təşkil etdiyini bildirib. O, Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığa dəyərli töhfə verdiyini qeyd edib.

Hasan Kleyb eyni zamanda əqli mülkiyyət sahəsində təhsil istiqamətində Azərbaycanla təşkilat arasında əməkdaşlıq potensialının mövcud olduğunu diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri Laçında səfərdə olublar













*Əvvəli 1-ci səh.*

Bildirilib ki, silahlı təxribata qədər Xankəndidə yaşayan erməni əsilli sakinlər sərhəd-keçid məntəqəsindən heç bir maneə olmadan istifadə ediblər. Hazırda da Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə tibbi evakuasiya təyinatlı keçidə şərait yaradılır. Başqa sözlə, bəzi dairələrin iddia etdiyi kimi, yol bağlı deyil. Sadəcə, Ermənistanın son təxribatı ilə bağlı müvəqqəti istintaq tədbirləri həyata keçirilir.

Xarici diplomatların diqqətinə çatdırılıb ki, Ermənistan tərəfi sərhəd-gömrük buraxılış məntəqəsindəki hazırkı vəziyyətdən propaqanda vasitəsi kimi istifadə edir. Bəzi Avropa siyasətçiləri də gəlib körpünün digər hissəsində dayanaraq həqiqəti əks etdirməyən birtərəfli məlumatlar paylaşırlar. Onlar bu vəziyyətdən özlərinin piar kampaniyaları üçün yararlanmağa çalışırlar.

Qonaqlar səfər çərçivəsində Laçında aparılan yenidənqurma və abadlıq işləri ilə tanış olublar. Laçın şəhəri 1 Dekabr küçəsində salınmış ilk yaşayış məhəlləsinə baxış keçirən qonaqlar artıq yurd-yuvalarına geri dönmüş sakinlərlə söhbət ediblər.

Daha sonra diplomatik korpusun nümayəndələri Laçında qurulmaqda olan Aqro və Sənaye Parkını ziyarət ediblər. Onlara sənaye parkının imkanları, perspektivləri haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Aqro və Sənaye Parkı Laçının iqtisadi dirçəlişi və əhalinin məşğulluğu baxımından xüsusi əhəmiyyətə malikdir. Burada 46 şirkət fəaliyyət göstərəcək və ümumilikdə 1200-ə yaxın laçınlı işlə təmin ediləcək.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Laçın şəhərində ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda 71 inzibati bina yenidən qurulur.

Xarici diplomatlar daha sonra Həkəri çayının sahilində salınan "Laçın bulvarı"na gəlib, bulvardakı quruculuq işləri ilə tanış olublar.

Laçına səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Zabux kəndində də olublar. Onlara məlumat verilib ki, 30 ilə yaxın davam etmiş işğal dövründə kənd tamamilə dağıdılıb, məhv edilib. Hazırda isə Zabuxda genişmiqyaslı tikinti-bərpa işləri həyata keçirilir.

Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar daha sonra Zəngilanın Ağalı kəndinə gəliblər.

Burada qonaqlara Ağalıda tətbiq olunan "ağıllı kənd" konsepsiyası haqqında ətraflı məlumat verilib. Diplomatlar Ağalı sakinləri ilə söhbət ediblər.

# Əqli mülkiyyətin inkişafı müasir çağırışlar olaraq ölkəmizin də əsas məqsədlərindəndir

**Aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa dövlət dəstəyinin genişləndirilməsi, əqli mülkiyyətin üstünlük təşkil etdiyi yaradıcı iqtisadiyyatın inkişafının dəstəklənməsi müasir çağırışlar olaraq ölkəmizin əsas pioritetlərindəndir.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov və Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktorunun müavini Hasan Kleyb ilə görüşüblər.

Görüşdə bildirilib ki, Azərbaycanda son illər ərzində elmi tədqiqat potensialı müasirləşdirilib, müasir texnologiyaların tətbiqində əqli mülkiyyətin rolu artırılıb. Ölkəmizin milli prioritetlərinin 2-si məhz Azərbaycanın dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata, rəqabətli insan kapitalına sahib olmasını və müasir innovasiyalar məkanına çevrilməsini hədəfləyir. Hazırlanan Rəqəmsal İqtisadiyyat Strategiyasında da bilik və bacarıqların Dördüncü Sənaye İnqilabı və rəqəmsal iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması öz əksini tapıb.

Qeyd edilib ki, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı, aparıcı iqtisadi sahələrdə əqli fəaliyyətin nəticələrinin təşviqi, peşə hazırlığının keyfiyyətinin artırılması müasir çağırışlar olaraq ölkəmizin də əsas məqsədlərindəndir və bu istiqamətdə müvafiq işlər görülür.

Hasan Kleyb əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması, effektiv patent qeydiyyatı prosedurlarının qurulması və əqli mülkiyyət hüquqları ilə bağlı məlumatlılığın artırılması barədə fikirlərini bölüşüb, ölkəmizin bu istiqamətdə əldə etdiyi nəticələri yüksək qiymətləndirib.

Görüşdə sahibkarlıq subyektləri üçün əmtəə nişanları və coğrafi göstəricilər üzrə təcrübə mübadiləsinin təşkili, əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatının iqtisadi siyasətə çevrilməsi məsələləri müzakirə olunub.

# *Müasir əqli mülkiyyət ekosisteminin inkişafı:* milli əqli mülkiyyət ofislərinin təkamülü və mütəxəssislərin hazırlanması

**Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktorunun müavini Hasan Kleybin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdədir.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində iyunun 24-də "Müasir əqli mülkiyyət ekosisteminin inkişafı: milli əqli mülkiyyət ofislərinin təkamülü və mütəxəssislərin hazırlanması" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbirdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bildirib ki, bu səfərin məqsədi Azərbaycan Respublikası Prezidentinin uğurla həyata keçirdiyi institusional islahatlar çərçivəsində Əqli Mülkiyyət Agentliyinin müasir çağırışlara uyğun formalaşması, idarəçilik təcrübəsinə dair məlumatların əldə edilməsi, əqli mülkiyyət ekosistemi ilə bağlı ölkəmizdə görülən işlərlə, o cümlədən agentliyin təşəbbüsü və dəstəyi ilə Azərbaycan universitetlərində əqli mülkiyyət ixtisası üzrə kadrların hazırlanması prosesi ilə tanış olmaq, ÜƏMT ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsi, habelə işğaldan azad edilmiş ərazilərimizə aid olan coğrafi göstəricilərin qeydiyyatı, onların beynəlxalq miqyasda tanınmasına dəstək göstərilməsidir.

Kamran İmanov diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin bütün sahələrdə həyata keçirdiyi islahatların ideologiyasının əsasını yaradıcı sahibkarlıq, investisiyalar və rəqabət bazarları ilə yanaşı, intellektual mülkiyyətin inkişafında innovasiyalara dəstək göstərilməsi təşkil edir. Təbiidir ki, burada fənlərarası yanaşmadan söhbət gedir. Həmin yanaşma intellektual mülkiyyət kateqoriyası anlayışının yenidən dərk və təsbit edilməsini, iqtisadiyyat, sosiologiya və hüququn qarşılıqlı əlaqələri kimi öyrənilməsini nəzərdə tutur.

Azərbaycanın dövlət başçısı tərəfindən təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası ilə bağlı inkişaf planı göstərilən məqsədlərə xidmət edərək, bilavasitə əqli mülkiyyətə innovasiyaların milli ekosistemini formalaşdıran hərəkətverici qüvvə kimi yanaşmağı tələb edir.

Əqli mülkiyyətin müasir rolu - innovasiya prosesinin bütün həlqələrinə, o cümlədən müvafiq mədəniyyətin aşılanmasından və yaradıcılığın dəstəklənməsindən, əqli mülkiyyətin qorunmasından və kommersiyalaşdırılmasının təşviqinədək, qorunma sənədlərinin iqtisadi və sosial təsirinin, bir sözlə, innovasiya prosesinin bütün mərhələlərinə xidmət göstərməkdir.

Hüquq, iqtisadiyyat və sosiologiyanı birləşdirən vasitə kimi əqli mülkiyyətin genişləndirilmiş funksiyaları əsas aktorların: yaradıcı institutların-cəmiyyətin qarşılıqlı əlaqəsində özünü büruzə verir.

Agentlikdə göstərilən bütün xidmətlər aşağıdakı parametrlər üzrə təhlil edilir:

- birincisi, daxili transaksiya xərclərinin azaldılması və "North Coase" neoinstitualizminə uyğun olaraq adaptiv səmərəliliyin ölçüsü;

- ikincisi, işin şəffaflığının transparentliyinin təmin edilməsi və subyektivliyin aradan qaldırılması.

Praktikada bu, sistemin təkamülünün çağırışlarına adekvat cavab verməyə, yaranan transaksiyaları təhlil etməyə, idarəetmə qərarlarının səmərəliliyini artırmaq üçün hazırlanmış metodoloji qayda və alqoritmləri tətbiq etməyə imkan verir.

Rəqəmsal platforma PƏNAH patentlərin və əmtəə nişanlarının müştəriləri (müraciət edənlər) arasında "bir pəncərə" prinsipi əsasında təmassız əlaqə və istənilən mənbədən sistemə məhdudiyyətsiz çıxış imkanı yaratmağa xidmət edir.

Qorunma sənədlərinin verilməsi və ekspertiza funksiyalarına gəldikdə, agentlik öz fəaliyyətini xidmətlərin səmərəliliyini artırmaq, o cümlədən iddiaçıların ixtiraçılıq və patent aktivliyini gücləndirmək, ərizələrə baxılma müddətini azaltmaq, müraciət prosedurunu sadələşdirməklə həyata keçirilir, bürokratik maneələrin aradan qaldırılmasına metodiki kömək göstərilir.

Yaxın gələcəkdə həllini gözləyən məsələlərdən biri - ərizəçinin və Patent Mərkəzinin iddia sənədlərinin qəbulundan elektron qorunma sənədin verilməsi daxil olmaqla, vahid rəqəmli məkanda çalışmasıdır, belə ki, agentliyin bu sahədə 24/7 rejiminə keçməsidir. Bununla yanaşı, servislərin genişlənməsi nəticəsində patentin baxılması və verilməsi müddətinin 6 aya çatdırılmasıdır.

Tədbirdə çıxış edən ÜƏMT-nin Baş direktorunun müavini Hasan Kleyb bildirib ki, səfərinin məqsədi təmsil etdiyi təşkilat ilə Azərbaycan arasında əməkdaşlığı daha da gücləndirməkdir. Azərbaycana ilk dəfə gəldiyini deyən Hasan Kleyb Əqli Mülkiyyət Agentliyinin fəaliyyətini yüksək qiymətləndirib.

"Ümumdünya Əqli Mülkiyyət Təşkilatı dünya ölkələri üzrə 204 qurum arasında bu sahədə ən nümunəvi idarəçilik modellərini toplayaraq onları digər ölkələrə çatdırmaq üçün təlimatlar hazırlayıb. On beş ölkə seçilib. Seçilən ölkələr sırasında Azərbaycan da yer alıb", - deyə Hasan Kleyb vurğulayıb.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının rektoru Urxan Ələkbərov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və başqaları çıxış ediblər. Çıxışlarda "dəyirmi masa"nın mövzusunun aktual olduğu bildirilib və Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti yüksək qiymətləndirilib.

"Dəyirmi masa"da Kamran İmanovun "Müasir əqli mülkiyyət ekosisteminin inkişafı: milli əqli mülkiyyət ofislərinin təkamülü və mütəxəssislərin hazırlanması" mövzusunda məruzəsi dinlənilib. Daha sonra mövzu ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, iyunun 25-də ÜƏMT-nin mütəxəssisləri tərəfindən "Coğrafi göstəricilər" layihəsinin təqdimatı keçiriləcək.

1918 Azərbaycan Silahlı Qüvvələri 2023

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

**Millətimiz və dövlətimiz növbəti dəfə 26 İyun - Silahlı Qüvvələr Gününü qalib millət, qalib dövlət kimi qeyd edir. Buna görə biz hamımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində düşməni işğal altında olan torpaqlarımızdan qovub çıxarmış qəhrəman əsgərlərimizə, qazi və şəhidlərimizə borcluyuq.**




# Müzəffər Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz milli qürur mənbəyimizə çevrilib



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra iyunun 26-da Milli Ordunun yaradılmasına başlandı və ilk Əlahiddə Azərbaycan Korpusu təsis edildi. Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə həmin gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə süqutu, o dövrün ağır geosiyasi şərtləri və erməni daşnak qüvvələrinin düşmən fəaliyyəti və ərazi iddiaları səbəbindən Milli Ordumuzu tam qurmaq mümkün olmadı. Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu imdadımıza yetməsəydi, Cümhuriyyətin özünün iki ilə qədər mövcudluğu və paytaxtın Bakıya köçürülməsi mümkün olmazdı. Həmin dövrün son dərəcə çətin şərtlərinə rəğmən, qəhrəman övladlarımız Vətənimizin azadlığı və müstəqilliyi yolunda canlarını fəda etdilər. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanın Sovet İttifaqının tərkibinə qatılmasından sonra Azərbaycanda ordu quruculuğunda da varislik prinsipi pozulmuş, milli hərbçi kadrların hazırlanmasında boşluq yaranmışdır.

Sovet dönəmində Azərbaycanın öz ordusunun olmamasına baxmayaraq, Azərbaycan oğullarının hünər və şücaətləri İkinci Dünya müharibəsində nasist Almaniyasına qarşı döyüşlərdə bütün Avropaya səs salmışdı. Müxtəlif Avropa ölkələrində qəhrəmancasına döyüşmüş Azərbaycan əsgərləri bu gün də ehtiramla anılır.

Sovet dönəmindən bəhs edərkən Ulu Öndər Heydər Əliyevin cəsarətli və vətənpərvər təşəbbüsü və böyük səyləri ilə yaradılmış Naxçıvanski adına hərbi məktəbi xatırlamamaq mümkün deyildir. Heydər Əliyev böyük çətinliklə də olsa, 1971-ci ildə Bakıda məşhur Azərbaycan sərkərdəsi Cəmşid Naxçıvanski adına hərbi kadrlar hazırlayan məktəbin yaradılmasına nail olur. Məktəbə Cəmşid Naxçıvanskinin adının verilməsi Heydər Əliyevin hələ sovet dövründə Azərbaycanda ordu sahəsində varislik prinsipinə sədaqətinin çox güclü göstəricisidir. Çünki Cəmşid Naxçıvanski Azərbaycan Demokratik Cümhuriyyəti dönəmində müstəqilliyin qorunması uğrunda erməni daşnaklara və onların xarici havadarlarına qarşı qətiyyətlə mübarizə aparmış, komandiri olduğu Qarabağ süvari alayı ilə birlikdə 1920-ci ilin martında Şuşada daşnaklara qarşı fəal surətdə döyüşmüşdür. O, Sovet dövründə repressiyaya məruz qalmış və güllələnmişdir.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev olduqca mürəkkəb və ağır daxili və beynəlxalq şəraitdə ordu quruculuğuna başladı. Eyni zamanda orduda ruh düşkünlüyünü aradan qaldırmaq, əsgərlərin mənəvi baxımdan da yaxşı hazırlanması tələb olunurdu. Bu və digər nüansları yaxşı bilən Ulu Öndər qeyd edirdi ki, "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər".

Ulu Öndərin başladığı ordu quruculuğu Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirildi. Onun rəhbərliyi ilə ordumuz Vətən müharibəsində bütün dünyanı heyrətə salan böyük zəfər çaldı. Məhz bu zəfər sayəsində Prezident İlham Əliyev tarixə Müzəffər Ali Baş Komandan kimi düşüb. Amma bu uğurlarla kifayətlənməyərək, Prezident İlham Əliyev ordumuzun peşəkarlığının və döyüş qabiliyyətinin yüksəldilməsinin hər zaman prioritet olacağını bəyan edib. Bu istiqamətdə işlər Vətən müharibəsi bitdikdən sonra da davam edir.

İyunun 23-də dövlət başçısı Komando hərbi hissələrindən birində yaradılmış şəraitlə tanış olub. Komando hissələrinin yaradılması ordunun yüksəksəviyyəli peşəkarlığının və çevikliyinin təmin edilməsinə xidmət edir və düşmən üçün çəkindirici rol oynayır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Komando hərbi hissəsində əsgər və zabitlər qarşısında bəyan etdi ki, "Bundan sonra da ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir. Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmır, hər bir təxribata layiqli cavab verilir, istər hərbi cavab, istər siyasi cavab".

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri***

# Regionun yenilməz gücü

## Ordumuz təhlükəsizliyimizin ən möhkəm dayağıdır

**İyunun 23-də Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində Döyüş bayrağının təqdim olunma mərasimi keçirilib. Mərasimdə çıxış edən Prezident İlham Əliyev səsləndirdiyi fikirlərlə dövlətimizin və ordumuzun yenilməz qüdrətini bir daha bütün dünyaya bəyan edib. Ali Baş Komandan həmçinin Vətən müharibəsindən ötən son iki il yarım ərzində ordumuzun böyük dərəcədə gücləndiyini diqqətə çatdırıb.**

**Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, Azərbaycan Ordusu qarşıya qoyulmuş ən çətin hərbi əməliyyatları belə yerinə yetirmək gücündə olan şəxsi heyətə və maddi-texniki təchizata malikdir.**

### Ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib

Milli Məclisin deputatı Sahib Alıyev bildirib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin Komando hərbi hissəsinin açılışında çıxışı zamanı İkinci Qarabağ savaşından keçən iki il yarım müddətində baş verənlərə aydınlıq gətirdi: "Birincisi, savaşdan sonra bəzi dövlətlərin, xüsusilə Minsk qrupuna sədrlik edənlərin sanki savaş olmayıbmış kimi davranışlarının nəticəsiz qalması diqqətə çatdırıldı. Prezident qeyd etdi ki, onlar artıq tarixin arxivinə qovuşublar. İkincisi, Qarabağda yaşayan hayların davamlı olaraq qaldırılan status məsələsinə də artıq son qoyulub. Üçüncüsü isə, "Qarabağ Ermənistandır" deyənlər, yəni Ermənistan rəhbərliyi artıq "Qarabağ Azərbaycandır" ifadəsini işlədir".

Deputatın sözlərinə görə, bütün bunların arxasında isə iki reallıq durur: "Birincisi Azərbaycanın diplomatik müstəvidə yürütdüyü, düşünülmüş, bir-birini tamamlayan addımları, ikincisi isə ordumuzun güclü potensialıdır. Prezident çıxışı zamanı bizə qarşı törədilmiş təxribatlara cavab olaraq, eləcə də qarşı tərəfin revanşist hərəkətlərinin qarşısını almaq məqsədilə bir çox uğurlu əməliyyat həyata keçirdiyimizi də boşuna vurğulamadı. Bu hərbi əməliyyatlar ordumuzun Vətən müharibəsində olduğundan da güclü potensiala yiyələndiyini üzə çıxardı. Dövlət başçısı bildirdi ki, "Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim ordumuz yeni, yüksək səviyyəyə qalxacaq. Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür".

Sahib Alıyev qeyd edib ki, Komando hərbi hissəsinin açılışında da açıq şəkildə bildirildi ki, hazırda geosiyasi vəziyyət son dərəcə gərgindir, regionda təhdidlər mövcuddur: "Nəzərə almaq lazımdır ki, bu təhdidlər sadəcə Ermənistandakı revanşistlərdən gələn təhdidlər deyil. Ona görə də Prezidentin birbaşa nəzarəti ilə Azərbaycan Ordusu çağdaş PUA-larla, güclü dağıdıcı potensiala malik, dəqiq hədəfə vuran uzaqmənzilli raketlərlə durmadan silahlandırılır, yeni döyüş birləşmələri yaradılır. Dövlət başçısının sözlərinə görə, yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə, Komando qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir".





### Güclülər sırasında

Milli Məclisin deputatı Tural Gəncəliyev bildirib ki, Prezident İlham Əliyev ordu quruculuğuna hələ hakimiyyətinin ilk illərindən başlayaraq ciddi önəm verib: "Bu həm də Ulu Öndər Heydər Əliyevin ənənələri və vəsiyyəti ilə sıx bağlı olub. Nəzərə almaq lazımdır ki, güclü iqtisadi potensiala malik və Cənubi Qafqaz kimi çətin geosiyasi məkanda yerləşən ölkənin ordusunun ciddi resurslarla təmin edilməsi önəmli məsələdir. Ona görə Prezident də bu məsələni hər zaman diqqətdə saxlayıb. 2003-cü ildən etibarən orduya yatırılmış resursların bəhrəsinin isə xüsusən Vətən müharibəsində şahidi olmuşuq. Güclü ordu quruculuğunun nəticəsidir ki, ordumuz cəmi 44 gün ərzində düşmən ordusunu darmadağın edib. Əminliklə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu nəinki Cənubi Qafqazın, eləcə də dünyanın ən güclü orduları sıralarında yer alır və durmadan inkişaf edir".

Deputat vurğulayıb ki, ölkəmizdə ordu quruculuğu digər dövlətlərə hər hansı təhlükə yaratmaq məqsədinə xidmət etmir. Lakin otuz il ərzində Ermənistan işğalının qurbanı olan Azərbaycan bu gün də bəzi dövlətlərin təhdidləri ilə üzləşir. Təkcə Qarabağda 10 min nəfərlik erməni quldur dəstəsinin mövcudluğu bunun bariz nümunəsidir. Yəni ordu quruculuğunun möhkəmləndirilməsi əsasən müdafiə xarakteri daşıyır.

Tural Gəncəliyev deyib ki, Azərbaycan Ordusunun təkcə maddi-texniki baxımdan deyil, eləcə də mənəvi cəhətdən düzgün istiqamətlənməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, dövlət-ordu-xalq həmrəyliyinin qorunması dövlətimizin əsas prioritetlərindəndir: "Bu gün Azərbaycan o qədər güclüdür ki, bizlə təhdid dili ilə danışmaq istəyənlər də ehtiyatlı davranmağa məcburdurlar. Təbii ki, burada Ermənistandan söhbət getmir, çünki onlar bizə hərbi rəqib ola bilməzlər. Burada Ermənistanın havadarı olan daha böyük güclər nəzərdə tutulur".

Deputat əlavə edib ki, Azərbaycan bu gün artıq orta güc dövləti çərçivəsindən çıxaraq öz hərbi gücünü daha böyük siyasi coğrafi məkana proyeksiya edir: "Azərbaycan Ordusu mühüm texnoloji silahlarla təmin edilir, əsgər və zabitlərimizə mütəmadi olaraq xüsusi təlimlər keçirilir. Təsadüfi deyil ki, ordumuzun şəxsi heyəti NATO-nun standartlarına cavab verir. Bu gün Azərbaycan dünyanın ən qüdrətli ordularından birinə sahib ölkədir".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İlham Əliyev güclü və modern Silahlı Qüvvələr yaradıb

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, Vətən müharibəsi ordumuz üçün həm də bir sınaq oldu. İllərlə keçirilən təlimlər, alınan silah-sursatlar, texnikalardan yararlanma və ən başlıcası, vahid komandanlıq sisteminin idarəedilməsinin uğurlu nəticəsi əsl reallığı əks etdirdi. Bununla yanaşı, çatışmazlıq, əskiklik olan tərəflər də müəyyənləşdi.

Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin hazırda maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizat bunun əyani təzahürüdür. Xüsusən də yeni yaradılan Komando briqadaları müasir yeniliklərdən biridir və Azərbaycanda bir ilkdir.

Qalib sərkərdə İlham Əliyevin göstərişinə əsasən, müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycan Ordusunun Ermənistan ordusu üzərində qazandığı üstünlüyün qorunub saxlanmasını təmin edir.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu yeni tapşırıqlar və hərbi islahatların növbəti mərhələsinin başlanması barədə göstərişi uğurla icra olunur.

İyunun 23-də İlham Əliyevin iştirakı ilə Müdafiə Nazirliyinin yeni Komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanışlıq və hərbi hissəyə Döyüş bayrağının təqdim edilməsi mərasimi də bunu bir daha təsdiqləmiş oldu.

Hərbi qulluqçular qarşısında çıxış edərək mühüm məsələlərə toxunan dövlət başçısı dedi ki, Vətən müharibəsindən sonra onun göstərişi ilə Müdafiə Nazirliyində Komando qüvvələri yaradılıb və komandoların sayı gündən-günə artmaqdadır. Artıq bir neçə hərbi hissə fəaliyyət göstərir və yeni hərbi hissələrin açılışı nəzərdə tutulur. Bu da bir daha sübut edir ki, Azərbaycan Ordusunun döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə artırılır və bundan sonra daha da mühüm addımlar atılacaq.

Göründüyü kimi, Ali Baş Komandan konkret planlar, tədbirlər əsasında hərbi islahatları davam etdirir və ordumuzun arsenalını getdikcə daha da gücləndirir. Bu da səbəbsiz deyil. Bu məsələyə İlham Əliyev bir daha aydınlıq gətirərək Azərbaycanın bu gün hərbi quruculuğu davam etdirməsinin səbəblərini bir neçə aspektlə əsaslandırıb. Prezident vurğulayıb ki, ilk olaraq, müharibə dövründə Azərbaycan Ordusu kifayət qədər döyüş sursatından istifadə edib və bu gün onlar bərpa edilməlidir. Bunun üçün bağlanmış yeni müqavilələr əsasında ordumuzun arsenalı ən yeni silah-sursat, hərbi texnikalarla təchiz edilir: "Vətən müharibəsindən sonra yeni silahların alınması prosesi davam edir və artıq bir çox kontraktlar imzalanmışdır - həm yeni pilotsuz uçuş aparatlarının ölkəmizə gətirilməsi, həm uzaqmənzilli raketlərin ölkəmizə gətirilməsi, o raketlər ki böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malikdir".

Əlbəttə ki, bütün bunlar səbəbsiz deyil. İlham Əliyevin də söylədiyi kimi, bu gün dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bütün bunları nəzərə alaraq, Ali Baş Komandan ordumuzun daha da gücləndirilməsini bir nömrəli prioritet kimi müəyyənləşdirib. Buna nail olmaq üçün təbii ki, kompleks tədbirlər görülür.

Əlbəttə ki, digər mühüm məsələ Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılmasıdır. Çünki İkinci Qarabağ müharibəsi şanlı zəfərlə yanaşı, həm də əməliyyatların aparılması sahəsində böyük təcrübə olub. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanması prosesi idi ki, ordumuz bu yoxlamadan şərəflə çıxdı.

Ali Baş Komandanın tapşırıqlarından biri də yeni Komando xüsusi təyinatlı qüvvələrin yaradılmasıdır. Artıq bu tapşırıq da uğurla icra olunur. Müxtəlif ərazilərdə Komando briqadaları yaradılır. Yəni Komando qüvvələrinin yaradılması ordumuzun hərbi potensialının təkmilləşdirmə elementlərindən yalnız biridir, lakin çox vacib elementdir. Komando briqadalarının yaradılması ölkəmiz üçün yenilikdir. Bu briqadalarda yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan hərbçilər xidmət edirlər. Komando briqadası ən son hərbi avadanlıq və silahla təchiz edilmiş müqaviləli mütəxəssislərdən ibarət daim hazırlıqlı, yüksək mobil hava-desant hücum birləşməsidir. Onlar günün istənilən vaxtında həm dağlıq, həm meşəlik ərazilərdə, həmçinin şəhər şəraitində hər an baş verə biləcək silahlı münaqişələrdə dərhal döyüş istifadəsinə hazırdılar. Bu briqadalar təcrid olunmuş və ya əsas qüvvələrdən ayrı qaldığı halda vahid informasiya kommunikasiya məkanında qalıb, döyüş əməliyyatlarını aparmağa qadirdilər.

Göründüyü kimi, həyata keçirilən uğurlu proseslər, eləcə də müasir texnologiyaların tətbiqi ilə qoşunlarda yaradılan avtomatlaşdırılmış Komando idarəetmə məntəqələri Silahlı Qüvvələrin bütün qoşun növlərinin dayanıqlı, operativ, gizli və fasiləsiz idarə olunmasına imkan yaradıb. Hərbi hissələrin, əsasən də cəbhə xəttindəki bölmələrin yeni növ silah, döyüş texnikası və digər hərbi vasitələrlə təchiz edilməsi, raket və artilleriya qoşunlarının arsenalında olan müasir raket kompleksləri və atəşi idarəetmə sistemləri qoşunların döyüş qabiliyyətini xeyli yüksəldərək düşmənin canlı qüvvəsini, döyüş texnikasını və hərbi infrastrukturunu məhv etmək imkanlarını genişləndirib.

İlham Əliyev Silahlı Qüvvələrin daha da modernləşməsi istiqamətində aparılan islahatları dəyərləndirərkən vurğulayıb ki, ordunun daha da qüdrətlənməsi üçün dövlətin iqtisadi imkanları artmalıdır. Azərbaycan iqtisadiyyatı isə postböhran dövründə özünün dayanıqlı inkişafını qoruyub-saxlaya bilib. Dövlət büdcəsinə daxil olan əlavələr isə həm işğaldan azad olunan torpaqlarımızda quruculuq işlərinin aparılmasına, həm də ordu quruculuğu prosesinə yönləndirilir. Böyük zəfərimizlə bitən Vətən müharibəsində diz çöküb yalvaran Hayastan indi sülh müqaviləsini imzalamaqdan boyun qaçırır. Azərbaycana qarşı çirkin kampaniyalar aparılır. Bu ölkədəki revanşist qüvvələr müxtəlif zamanlarda təxribatlar törətməklə Azərbaycanın səbri ilə oynayırlar.

Prezident çıxışında bu məsələyə də toxunaraq həmin qüvvələrə bir daha sərt xəbərdarlığını ünvanladı: "Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz. Yenə də deyirəm, biz haqq-ədaləti tələb edirik. Bu gün Ermənistanla aparılan sülh danışıqlarının yekunlaşması həm bizə lazımdır, həm də daha çox Ermənistana lazımdır".

Dövlət başçısı bir daha vurğuladı ki, sülh anlaşması beynəlxalq hüququn norma və prinsipləri əsasında imzalanmalı və anlaşmada postmüharibə reallıqları nəzərə alınmalıdır.

Ermənistanın keçən ilin oktyabr ayında rəsmən Azərbaycanın ərazi bütövlüyünü tanıdığını söyləyən İlham Əliyev bu fikirlərin kifayət etmədiyini və daha dəqiq sözlərin deyilməli olduğunu vurğulayıb.

Qeyd edək ki, ötən ay Ermənistan tərəfindən bir daha rəsmən nəinki ərazi bütövlüyümüz tanınıb, hətta Azərbaycan ərazisinin parametrləri də qeyd olunub. Bunu müsbətə doğru atılan addım hesab edən İlham Əliyev vurğulayıb ki, bundan sonra həmin ifadələr kağız üzərində olmalıdır və Ermənistan sənədə imza atmalıdır. Belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Əks təqdirdə sülh olmayacaq.

Bir sözlə, qalib komandan hərbçilərlə görüşündə həm yeni ordu quruculuğu prosesindən danışıb, həm də Hayastana mesajlarını göndərib.

İlham Əliyevin həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Prezidentin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahlı Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş ordumuzdan daha da güclüdür. Bu hərbi güc Qafqazın ən güclü Zəfər Ordusudur!

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

**1918** Azərbaycan Silahlı Qüvvələri **2023**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi



# Üçüncü dəvət olmayacaq

## Nə qədər gec deyil, Qarabağdakı ermənilər vəziyyəti düzgün qiymətləndirməlidirlər

**"Dünya ictimaiyyəti artıq birmənalı şəkildə Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır" - Müzəffər Ali Baş Komandan İlham Əliyevin 26 İyun Silahlı Qüvvələr Günü ərəfəsində Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olan zaman bəyan etdiyi kimi, ötən müddət ərzində Azərbaycanın apardığı ardıcıl və uğurlu siyasət nəticəsində milli maraqlarımız qətiyyətlə təmin edilib.**

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün regionda proseslər Bakının maraqları əsasında cərəyan edir, bölgədə reallaşdırılacaq istənilən məsələdə Azərbaycanın tələbləri əsas götürülür.

Vətən müharibəsindən ötən müddət ərzində Azərbaycanın xeyrinə baş verən hadisələr, əldə olunan uğurlar və qələbələr onu deməyə əsas verir ki, ölkəmiz milli maraq və mənafelərini ardıcıl təmin edir.

### Vaxtilə onlar üçün hansısa xüsusi status tələb edən qüvvələr indi…

Dövlət başçısı İlham Əliyevin özünün də vurğuladığı kimi, vaxtilə erməni işğalını əbədiləşdirmək üçün səylər göstərmiş Minsk qrupu bu gün artıq gündəlikdə yoxdur, tarixin arxivinə göndərilib. Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi Prezident İlham Əliyevin sözlərini təkrarlayaraq "Qarabağ Azərbaycandır!" deməyə, bu həqiqəti qəbul etməyə məcbur olublar. Eyni zamanda vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər.

Yəni artıq məkrli qüvvələr də bu məsələnin Azərbaycanın daxili işi olduğunu qəbul edirlər və Qarabağda yaşayan erməni sakinlərlə bağlı ölkəmizə qarşı manipulyasiya etməkdən əl çəkiblər. Çünki hər kəs görür ki, Azərbaycan multikultural və tolerant ölkədir və burada yaşayan bütün xalqların və azlıqların nümayəndələri yüz, min illərdir dostluq və barış içərisində yaşayırlar. Eləcə də humanizm nümayiş etdirərək Vətən müharibəsindən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif edən Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində praktik addımlar atır və bu məsələdə qərarlı olduğunu əyani nümayiş etdirir.

"Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar". Bu sözləri Ali Baş Komandan 2020-ci ilin oktyabrında, hələ Vətən müharibəsinin gedişi ərəfəsində Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində demişdir və sonradan müxtəlif beynəlxalq tribunalardan analoji fikirlər səsləndirmişdir.

Qarabağdakı ermənilər üçün normal şərait yaratmaqda qərarlı olan dövlətimiz onların reinteqrasiyası ilə bağlı konkret təşəbbüslər ortaya qoyub. Qarabağdakı erməni sakinlərlə dialoqun həyata keçirilməsi istiqamətində ilk praktik addım isə bu il martın 1-də gerçəkləşdirilib. Həmin gün Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüş zamanı onların ölkəmizin Konstitusiyasına və qanunları çərçivəsində Azərbaycana reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb. Ardınca Prezident Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi, habelə Qarabağda infrastruktur layihələrinin reallaşdırılması məsələlərinin müzakirəsi üçün ikinci görüşə dəvət edib.

### "Hünəriniz varsa gəlin, görək sonra axırınız nə olacaq"

Amma separatçı qüvvələr hər vəchlə Qarabağda yaşayan sadə ermənilərin cəmiyyətimizə reinteqrasiyasına mane olurlar. Beləbləri fikirləşmirlər ki, artıq separatizmin at oynatdığı əyyamlar geridə qalıb, separatizmin "Miatsum" kitabı bağlanıb. Onların müstəqillik xülyaları da, status sərsəmləmələri də lazım olan yerə, yəni zibilliyə göndərilib. İndi Ermənistan rəhbərliyinin, separatçıların güvəndikləri heç bir xarici qüvvə də Azərbaycanın daxili işinə burnunu soxa bilmir, çünki ölkəmiz buna qətiyyən imkan vermir.

İyunun 23-də Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olan Ali Baş Komandan hərbçilər qarşısında çıxışı zamanı da qeyd etdi ki, işğal müddətində ermənilərin torpaqlarımızda törətdikləri vəhşiliklərə göz yuman ikili standartlı və rüşvətxor Avropa məmurları və deputatları gedib bizim sərhədimizə yaxın yerlərdə şəkillər çəkdirirlər, bizə hansısa mesajlar ünvanlayırlar. Dövlət başçısı xəbərdarlıq etdi ki, hünərləri varsa, gəlsin yaxınlaşsın bizim sərhədimizə. O vaxtlar artıq tarixdə qaldı. Yenə də onların ayağını biz qırdıq. Çünki İkinci Qarabağ müharibəsindən sonra biz bunu unutmamışıq. Bəzi Avropa ölkələrinin rəsmi nümayəndələri bizim ərazimizə, Xankəndiyə icazəsiz soxulmuşdular: "Mən o vaxt demişdim ki, əgər bizim bundan xəbərimiz olsaydı, onları buraxmayacaqdıq. Bu gün də deyirəm, hünəriniz varsa gəlin, görək sonra axırınız nə olacaq"

Göründüyü kimi, indi separatçıların və Qarabağda yaşayan sadə ermənilərin iki yolu qalıb - ya Azərbaycan qanunlarına tabe olaraq onun bayrağı altında ölkəmizin vətəndaşı kimi ərazilərimizdə yaşayacaqlar, ya da torpaqlarımızdan birdəfəlik çıxıb gedəcəklər. Azərbaycanda yaşayan erməni azlığın özü üçün yaxşı olardı ki, neçə ki gec deyil, ölkəmizin onlara verdiyi layiqli yaşamla bağlı vədindən faydalansınlar.

Mayın 28-də - Müstəqillik Günündə Laçın şəhərinin sakinləri ilə onların doğma yurdunda görüşən dövlət başçısı İlham Əliyevin söylədiyi kimi: "Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, hadisələr başqa cür inkişaf edəcək".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ordu vətənin dirəyidir

**Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 105 il əvvəl - 26 iyun 1918-ci ildə Milli Ordunun yaradılması haqqında qərar qəbul etmişdir. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmanla isə ölkəmizdə həmin gün Silahlı Qüvvələr Günü elan olunmuşdur.**



1998-ci il iyunun 25-də Azərbaycan Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Ulu Öndər Heydər Əliyev demişdir: "Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin - ölkəmizin müstəqilliyini elan edən xalq cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycan Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 İyun gününü Azərbaycan Silahlı Qüvvələri, Ordusu günü elan etmişik".

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik və yeganə parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Azərbaycan xalqı özünün çoxəsrlik tarixində müstəqil dövlətini qurdu, ictimai-siyasi quruluşun müvafiq modelini təsis etdi. Yenicə yaradılmış dövlətin qarşısında duran başlıca vəzifələrdən biri də ölkənin müstəqilliyini və ərazi bütövlüyünü qorumaq, daxili düşmən qüvvələri zərərsizləşdirmək və xarici müdaxilələrin qarşısını almaq üçün Silahlı Qüvvələrin yaradılması idi. Milli Ordunun təşkili həyati zərurətdən irəli gəlirdi və bu, dövlətin qarşısında dayanan təxirəsalınmaz vəzifələrdən biri sayılırdı.

Milli Şuranın 28 may 1918-ci il tarixli qərarına əsasən, Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci müvəqqəti hökumətin tərkibində təsis edilmiş hərbiyyə naziri vəzifəsinə Xosrov bəy Sultanov təyin edildi. Hökumətin 26 iyun 1918-ci il tarixli qərarı ilə Müsəlman Korpusunun adı dəyişdirilərək "Əlahiddə Azərbaycan Korpusu" adlandırıldı və bununla da milli silahlı qüvvələrin yaradılması istiqamətində mühüm addım atıldı. Həmin tarixdə hökumətin digər qərarı ilə Əlahiddə Azərbaycan Korpusu nəzdində xüsusi tapşırıqlar üzrə general vəzifəsi təsis edildi.

1918-ci il iyulun əvvəllərində Azərbaycan Korpusunun hissələri iki türk diviziyasının - 5-ci Qafqaz və 15-ci Çanaqqala diviziyalarının hissələri ilə birgə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun tərkibinə daxil edildi. Başda general-leytenant Nuru Paşa olmaqla Qafqaz İslam Ordusunun qərargahı Gəncə şəhərində yerləşdirildi.

Arxiv sənədlərinə əsaslanaraq qeyd olunmalıdır ki, ölkəmizdə Silahlı Qüvvələrin yaradılması son dərəcə ağır hərbi-siyasi şəraitdə aparılırdı. 1918-ci ilin yayında Azərbaycanda siyası vəziyyət ikihakimiyyətliliyin mövcudluğu ilə xarakterizə edilirdi. Ölkənin şərq hissəsi (Bakı quberniyası) Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı Xalq Komissarları Sovetinin (XKS) təsiri altında, qərb hissəsi (Yelizavetpol quberniyası) isə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə tabe idi. Əsasən erməni bolşevik-daşnaklardan ibarət olan Bakı Xalq Komissarları Soveti Azərbaycanın milli hökumətini nəinki tanımadı, hətta ona qarşı mübarizə elan etdi. Bakı XKS və onun ordusu Gəncə üzərinə yürüşə keçərək ölkədə vətəndaş müharibəsini yenidən alovlandırdı. Ölkədə sovet hakimiyyəti qurmaq adı altında Azərbaycan türklərinə divan tutulmağa başlandı. Bakı, Şamaxı, Quba, Lənkəran, Salyan, Naxçıvan, Qarabağ və digər bölgələrdə dinc əhaliyə qarşı misli görünməmiş qırğınlar törədildi.

Erməni-daşnak qüvvələrinin törətdiyi bu azğınlığın qarşısının alınmasında xalqımızın hərbi köməyə ehtiyacı var idi. 1918-ci il iyunun 4-də Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi imzalandı. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacinski, Türkiyə tərəfindən xarici işlər naziri Xəlil bəy və Qafqaz cəbhəsinin baş komandanı Vahib Paşa imzaladılar. İmzalanmış həmin müqaviləyə əsasən, Türkiyə tərəfindən Azərbaycana lazımi hərbi yardım göstərildi. Azərbaycan-Türkiyə qoşun hissələrinin birgə səyi nəticəsində əsasən ermənilərdən ibarət olan qırmızı ordunun I Qafqaz korpusunun Gəncəyə doğru hücumunun qarşısı alındı. Azərbaycan-Türkiyə birləşmiş qoşunları ilə Bakı XKS-nin qoşunları arasında ilk döyüş iyunun 16-18-də Göyçaydan bir qədər şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında baş verdi. Nazirlər Şurası 1918-ci il iyunun 19-da Azərbaycan ərazisində hərbi vəziyyətin tətbiq edilməsi barədə qərar qəbul etdi. Hökumətin 1918-ci il iyunun 23-də qəbul etdiyi qərarla ölkədə hərbi dövrün qanunları tətbiq olundu. Müvəqqəti Hökumət 1918-ci il iyulun 3-də əsgərliyə çağırış yaşının müəyyən edilməsi haqqında qərar qəbul etdi. Həmin qərara görə 19 yaşına çatmış gənclər hərbi mükəlləfiyyətli hesab olunurdu. Daha sonra 1918-ci il iyulun 11-də 1894-1899-cu illərdə anadan olmuş və müsəlman dininə mənsub vətəndaşların ordu sıralarına çağırılması barədə qərar qəbul edildi. "Azərbaycan" qəzetinin 15 sentyabr 1918-ci il tarixli nömrəsində hərbi xidmətə çağırışın müvəffəqiyyətlə keçirilməsi haqqında məlumat dərc edilmişdir. Həmin məlumatda bildirilirdi: "Əyalətlərdən alınmış məlumatlara görə, əsgərliyə çagırış müvəffəqiyyətlə keçirilir. Yaşın düzgün təyin edilməsi ilə bağlı yaranmış vəziyyət bir qədər çətinlik törədir. Bakıya yaxın kəndlər döyüş qabiliyyəti olan bütün kişiləri cəbhəyə çıxarmışdılar. Nuxa və Ərəş qəzalarından əsgərliyə yeni çağırılmış şəxslər isə artıq çoxdandır ki, Bakı ətrafında gedən döyüşlərdə iştirak edirlər".

Türk və Azərbaycan qoşunları ilə Bakı XKS-nin qoşunları arasında Göyçay ətrafında gedən dördgünlük (27 iyun-1 iyul) qızğın döyüşlərdən sonra əsasən ermənilərdən ibarət olan qırmızı ordunun I Qafqaz korpusunun Gəncəyə doğru hücumunun qarşısı alındı və Qafqaz İslam Ordusu Bakı istiqamətində əks-hücuma keçdi. İyulun sonlarında Şamaxı, Qarasu, Hacıqabul, Ələt, Qobu, Xırdalan, Sumqayıt və Səngəçal, avqustun 3-də isə Quba azad edildi.

Qafqaz İslam Ordusunun Bakıya doğru əks-hücumu Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi və nəticədə Bakı Soveti və onun icraiyyə orqanı olan Bakı XKS iyulun 31-də öz səlahiyyətlərindən imtina etməli oldu. Bakıda hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də "Sentrokaspi Diktaturası və Fəhlə, Əsgər Deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Heyəti" adlı hökumət təşkil etdi. Avqustun 5-də Azərbaycan-türk qoşun birləşmələri səhər tezdən şəhərin yuxarı dağlıq hissəsində yerləşən Badamdar yüksəkliyini ələ keçirərək Bibiheybətə doğru endi və oranı erməni daşnaklarından təmizləməyə nail oldu. Xilaskar qoşunun digər dəstələri isə Bibiheybətə doğru Şıxov kəndi tərəfindən irəlilədi. Avqustun 5-6-da Bibiheybət, Badamdar, Qurd qapısı, Binəqədi, Biləcəri və digər bölgələrdə gedən ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu sentyabrın 14-dən 15-nə keçən gecə həlledici hücuma keçdi. Sentyabrın 15-də Azərbaycan-Türkiyə birgə qüvvələri Bakını azad etdi.

1918-ci il sentyabrın 15-də çıxan "Azərbaycan" qəzetində Azərbaycan hökumətinin adına Nuru Paşadan aşağıdakı məzmunlu teleqramın daxil olduğu barədə məlumat verildi: "Allahın mərhəməti ilə Bakı şəhəri 15(9) 34-də (müsəlman tarixi ilə 1334-cü il nəzərdə tutulur) saat 9 radələrində bizim hissələr tərəfindən alındı. Qafqaz müsəlman ordusunun komandanı general-leytenant Nuru". 1918-ci il sentyabrın 15-də Türkiyənin Gürcüstandakı hərbi nümayəndəsi general-mayor Abdul Kərim Paşa Bakının azad edilməsi ilə bağlı Tiflisdən Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərova göndərdiyi təbrik telefonoqramında isə qeyd edilirdi: "Fədakarcasına döyüşmüş türk və Azərbaycan qoşunlarının Bakını alması münasibəti ilə sizi böyük hörmətlə təbrik edirəm".

Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və ərazi bütövlüyünün bərpa edilməsi, habelə genişlənməkdə olan erməni daşnak-bolşevik təcavüzünün qarşısının alınmasında 1918-ci il iyunun 4-də Osmanlı İmperatorluğu Hökuməti ilə Azərbaycan Respublikası arasında imzalanmış dostluq müqaviləsinin müstəsna əhəmiyyəti olmuşdur. Qeyd etmək kifayətdir ki, Bakını düşmən qüvvələrdən məhz Azərbaycan-Türkiyə birgə qüvvələri azad etmişdir.

1919-cu il 15 sentyabr tarixli "Azərbaycan" qəzeti Bakının azad olunduğu günün böyük əhəmiyyətini qiymətləndirərək yazmışdır: "Əgər biz 28 mayı müstəqilliyimizin elan olunduğu rəsmi gün hesab ediriksə, 15 sentyabr Azərbaycan qoşunlarının, Azərbaycan hökumətinin Bakıya daxil olduğu günü - müstəqilliyin faktiki olaraq əldə olunduğu və dövlətin əsasının qoyulduğu gün kimi hesab etmək mümkündür. Bu gün mütəşəkkil daşnak-bolşevik qüvvələrinin yalnız Azərbaycanın və digər Zaqafqaziya respublikalarının müstəqilliyinə qarşı deyil, Zaqafqaziyada türk xalqlarının varlığına qarşı yönəltdikləri ölümcül təhlükənin qarşısının alındığı gündür.

Türk qoşunları Azərbaycanın köməyinə imperialist və istila məqsədləri ilə deyil, öz qardaşlarını xilas etmək üçün gəldilər, Azərbaycan torpaqlarında təmənna güdmədən və fədakarcasına öz qanlarını axıdıb qardaşları qarşısında öz borclarını yerinə yetirərək getdilər. Qədirbilən Azərbaycan xalqı türk qoşunlarının son dərəcə mühüm xidmətlərini unutmayacaq və Bakıya onlarla birgə daxil olmasını Azərbaycan xalqının tarixinin ilk səhifələrinə yazacaqdır".

Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə minlərlə türk və azərbaycanlı əsgər və zabitlər, yerli əhali həlak olmuşdur. Onlar Şəhidlər xiyabanında dəfn edilmişlər. Azərbaycanın müxtəlif bölgələrində, Bakıdakı Şəhidlər xiyabanında türk şəhidlərinin xatirəsinə abidələr ucaldılmışdır. Qədirbilən xalqımız Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə canlarından keçmiş qəhrəman insanların, əsgər və döyüşçülərin şücaətlərini heç vaxt unutmur, böyük hörmət və ehtiramla yad edir.

Bakı erməni-bolşevik-daşnak qüvvələrindən təmizləndikdən sonra respublikada ordu quruculuğu və müdafiə sahəsində görülən işlər bir qədər də sürətləndirildi. Azərbaycan Xalq Cümhuriyyəti Qarabağ bölgəsində mövqelərini möhkəmləndirmək məqsədilə general-leytenant Nuru Paşa başda olmaqla Qafqaz İslam Ordusunu bu bölgəyə göndərdi. Hökumətin 1918-ci il oktyabrın 6-da keçirilmiş iclasında Nazirlər Şurasının sədri F.X.Xoyski nazir portfellərinin yenidən bölüşdürülməsinin nəticələrini elan etdi. İ.X.Ziyadxanov hərbi işlər üzrə müvəkkil təyin olundu.

*Ardı var*

***Rafiq SƏFƏROV,***
***Milli Arxiv İdarəsi Sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi***

# Dövlət qulluğuna qəbul edilən əməkdaşlar and içdilər



**Dövlət qulluqçularının peşə bayramı münasibətilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyində daimi dövlət qulluğuna yeni qəbul olunmuş əməkdaşların andiçmə mərasimi keçirilib.**

Əməkdaşları peşə bayramları münasibətilə təbrik edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin yeni sərəncamı ilə daha 10 nəfər nazirlik əməkdaşının təltif edildiyini diqqətə çatdırıb. O, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirib, təltif olunan əməkdaşları təbrik edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə 2018-ci ildən nazirliyin 102 əməkdaşının dövlət təltiflərinə layiq görüldüyü qeyd olunub.

Ulu Öndər Heydər Əliyev tərəfindən ölkəmizdə demokratik dəyərlər, mütərəqqi prinsiplər əsasında müasir dövlət idarəetmə sisteminin yaradıldığı, Prezident İlham Əliyevin uğurlu islahatlar proqramı nəticəsində Azərbaycanda dövlət qulluğu sisteminin daim təkmilləşdirildiyi vurğulanıb. Qeyd olunub ki, Azərbaycanda dövlət idarəetmə sistemi vətəndaş hüquq və azadlıqlarının təminatı, vətəndaş məmnunluğuna nail olunması prinsipinə əsaslanır. Dövlət başçısının "Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır", "Dövlət məmuru xalqın xidmətçisidir" sözləri hər bir dövlət qulluqçusu üçün başlıca fəaliyyət prinsipidir.

Nazirliyin Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Nərmin Bayramova nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə vakant yerlərə işə qəbul prosesinin nəticələrinə dair təqdimatla çıxış edib.

2018-2023-cü illərdə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş müsabiqə və müsahibələrdə uğur qazanmış 847 nəfərin nazirlik sistemində inzibati vəzifələrə işə qəbul olunduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Dövlət İmtahan Mərkəzinin açıqladığı məlumatlara əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həm sertifikat, həm də ümumi müsahibə nəticələri əsasında dövlət qulluğuna qəbul edilənlərin sayına görə dövlət orqanları sırasında birinci yeri tutub.

Yeni işə qəbul olunan 54 gənc and içib, çıxış edərək göstərilən inam və etimadı daim layiqli səviyyədə doğruldacaqlarını vurğulayıblar.

Dövlət başçısının 2023-cü il 22 iyun tarixli sərəncamı ilə təltif edilən əməkdaşların adları oxunub. Onlar fəaliyyətlərinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə edib, daim bu böyük etimada layiq səviyyədə fəaliyyət göstərəcəklərini bildiriblər.

# Zəngilanda Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun iclası keçirilib



**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupunun Zəngilan rayonunun Ağalı kəndində iclası keçirilib.**

Agentliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

İclasda ANAMA-nın İdarə Heyətinin sədri V.Süleymanov hökumətin prioritetlərinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin inkişaf planına əsasən icra edilən genişmiqyaslı minatəmizləmə əməliyyatları barədə məlumat təqdim edib. Böyük Qayıdış proqramının uğurla həyata keçirilməsində Şərqi Zəngəzur İqtisadi rayonunda aparılan minatəmizləmə əməliyyatları və əlaqəli şəkildə icra edilən quruculuq layihələrinin əhəmiyyətini vurğulayıb. Minatəmizləmə əməliyyatlarına cəlb olunan qurumlar tərəfindən 2023-cü il ərzində 19 min 840 hektar ərazinin partlayıcı qurğulardan təmizləndiyini, 9 min 150 mina və partlamamış hərbi sursatın aşkarlanaraq zərərsizləşdirildiyini bildirib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi V.Hacıyev ölkə rəhbərinin tapşırığı ilə yenidən qurulacaq şəhərlərdə, qəsəbələrdə və kəndlərdə bütün işlərin planlı və sistemli şəkildə aparılması üçün Baş planların hazırlandığını, habelə bu planlarda keçmiş məcburi köçkünlərin dayanıqlı qayıdışı üçün təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf kimi vacib olan bütün amillərin nəzərə alındığını qeyd edib. Bildirib ki, qarşıya qoyulan hədəflərə çatmaq üçün torpaqlarımızın minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işlərinin aparılması qarşıda duran əsas vəzifələrdən biridir. V.Hacıyev ANAMA-nın bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirdiyini və Agentliyin hər bir əməkdaşına bu fədakar işdəki əməyinə görə xüsusi təşəkkürünü vurğulayıb.

Sonra işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə layihələrinin gedişatı barədə qurumlar tərəfindən hesabatlar təqdim olunub, cari məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Zəngilan rayonuna səfər çərçivəsində İşçi qrup üzvləri Cəbrayıl rayonu ərazisində yerli şirkət tərəfindən minatəmizləmə fəaliyyəti icra edilən "Qız qalası suvarma kanalı" layihəsi, eləcə də ANAMA tərəfindən Zəngilan rayonunda icra edilən "Horadiz-Laçın qaz xətti" layihəsinin minalardan təmizlənməsi əməliyyatları ilə tanış olublar. Nümayəndələr icra edilən layihələrin gedişatı barədə məlumatlandırılıb, aşkarlanan mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsində iştirak ediblər.

# "Heydər Əliyev İli"ndə beynəlxalq təhsil əməkdaşlığı genişlənir

**Heydər Əliyevin anadan olmasının 100 illiyi ölkəmizdə təntənəli şəkildə qeyd olunur. Respublikamızda "Heydər Əliyev İli"nə həsr olunan çoxsaylı tədbirlərdə dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiram və sonsuz minnətdarlıq hissləri ilə yad edilir.**





Mingəçevir Dövlət Universitetində də (MDU) "Heydər Əliyev İli" çərçivəsində geniş tədbirlər planının reallaşdırılması diqqət mərkəzində saxlanılır. Tədbirlər planı universitetdə və regionda Ümummilli Liderimizə həsr olunan mühazirələr, "dəyirmi masa"lar, seminarlar, konfranslar, ağacəkmə aksiyaları, ekskursiyalar, bilik və idman yarışları və digər tədbirlərlə yanaşı, ölkə xaricində də, xüsusilə qardaş Türkiyədə tərəfdaş universitetlərlə birgə fəaliyyətləri ehtiva edir. Bu baxımdan 2023-cü ilin 18-22 iyun tarixlərində "Heydər Əliyev İli" çərçivəsində MDU nümayəndə heyətinin Türkiyənin paytaxtı Ankaraya səfəri məhsuldar, faydalı və maraqlı tədbirlərlə və görüşlərlə yadda qalmışdır.

İyunun 19-da Ankarada Azərbaycan səfirliyi, Türkiyənin Qazi Universiteti və MDU-nun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı" mövzusunda elmi konfrans keçirilmişdir.

Konfransda müasir Azərbaycan dövlətinin xilaskarı və qurucusu Heydər Əliyevin milli müstəqilliyimizin qorunması və gücləndirilməsi naminə misilsiz xidmətlər göstərdiyi, xalqımızın xilaskar lideri və Ümummilli Lideri zirvəsinə yüksəldiyi qeyd edilmiş və hazırda müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda Ulu Öndərin siyasi kursunun uğurla davam etdirildiyi vurğulanmışdır. Bildirilmişdir ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlığı, xalqımızın həmrəyliyi, qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfər məhz Heydər Əliyev siyasətinin təntənəsidir. Eləcə də "bir millət, iki dövlət" anlayışıyla Ümummilli Liderimizin hər zaman qardaş Türkiyə ilə əlaqələrin inkişafına və dostluq münasibətlərinin gücləndirilməsinə böyük önəm və misilsiz töhfələr verdiyi diqqətə çatdırılmış, dahi şəxsiyyətin əziz xatirəsinin xalqlarımız tərəfindən daim böyük hörmət, sonsuz sevgi və minnətdarlıqla yad ediləcəyi bildirilmişdir. Ulu Öndərimiz Heydər Əliyevin qlobal liderlik keyfiyyətlərinə malik olduğu vurğulanmış, görkəmli dövlət xadiminin çoxşaxəli, zəngin həyat və fəaliyyətində türk dünyasının xüsusi və mühüm yerə sahib olduğu diqqətə çatdırılmışdır. Qarşılıqlı əlaqələrin inkişafında elm və təhsil sahəsinin önəmindən danışılmış, növbəti illər üçün hər iki qardaş ölkənin inkişaf strategiyasının əməkdaşlıq baxımından yeni imkanlar qazandıracağı, universitetlərin hərəkətverici rolunu və məsuliyyətini daha da artıracağı qeyd edilmişdir.

Açılış nitqlərindən sonra konfrans panel iclası ilə davam etmişdir. Paneldə MDU alimləri "Heydər Əliyev və "bir millət, iki dövlət" anlayışı" və "Heydər Əliyevin türk dünyasının birliyinə töhfələri" mövzusunda, Qazi Universiteti alimləri "Heydər Əliyev dönəmi və Türkiyə-Azərbaycan mədəni əlaqələri", "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "bir millət, iki dövlət" sözlərinin türk sənətində izləri" mövzusunda məruzələrlə çıxış etmişlər. Məruzələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Həmçinin iyunun 20-də Ankarada Azərbaycan səfirliyi, Ankara Hacı Bayram Veli Universiteti və MDU-nun birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Azərbaycan və Türkiyə: Bir millət, iki dövlət, tək yumruq" mövzusunda elmi konfrans keçirilmişdir.

Konfransda Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi və sağlam əsaslar üzərində davamlı gücləndirilməsinin Ulu Öndərimizin müstəsna xidmətlərindən olduğu qeyd edilmiş, hazırda tarixinin şanlı zəfərlərlə dolu ən şərəfli səhifələrini yazmaqda davam edən müasir Azərbaycanın Ümummilli Liderimizin şah əsəri olduğu bildirilmişdir. "Mənim üçün öz canımdan, öz qanımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir" kəlamı xatırladılaraq dahi şəxsiyyət Heydər Əliyevin bütün ömrünü canından çox sevdiyi Azərbaycanın parlaq gələcəyinə və xalqının rifahına həsr etdiyi vurğulanmışdır. Diqqətə çatdırılmışdır ki, Ümummilli Liderimizin ideyalarına və siyasi kursuna sadiqliyini ifadə edən Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən nəhəng uğurlar, tarixi qələbələr ölkəmiz üçün bu siyasi xəttin alternativsizliyini bir daha nümayiş etdirir. Güclü Türkiyənin bütün türk dünyası üçün mühüm önəm kəsb etdiyi vurğulanmış, yaradılmasının ikinci yüzilliyinə qədəm qoyan Türkiyə Cümhuriyyətində inşasına başlanılan "Türkiyə yüz ili" strategiyasının türk dünyasının birliyinin daha da güclənməsində mühüm rol oynayacağına əminlik ifadə edilmiş, elm, təhsil və mədəni əlaqələrin, universitetlərarası əməkdaşlığın önəmindən danışılmışdır.

Daha sonra paneldə davam edən konfransda MDU və Ankara Hacı Bayram Veli Universiteti alimləri məruzələrlə çıxış etmişlər. Məruzələrdə Azərbaycan-Türkiyə münasibətlərinin tarixindən, ikitərəfli əlaqələrin inkişafında Heydər Əliyevin misilsiz xidmətlərindən, Ulu Öndərimizin türk xalqlarının ədəbiyyatının inkişafına töhfələrindən, Qarabağ zəfərinə qədər və sonrakı dövrlərdə qarşılıqlı əlaqələrin vəziyyəti və inkişaf perspektivlərindən bəhs edilmişdir. Məruzələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Ümummilli Liderimizin 100 illik yubileyinin qeyd edilməsi məqsədini daşıyan səfər çərçivəsində tərəfdaş universitetlərlə MDU arasında əməkdaşlıq imkanlarının daha da genişləndirilməsinə hədəflənən işgüzar görüşlər keçirilmiş və faydalı müzakirələr aparılmışdır. Bu baxımdan MDU nümayəndə heyətinin Qazi Universitetinin Mühəndislik və Texnoloji fakültələrində, Ankara Hacı Bayram Veli Universitetinin Turizm, İqtisadi və idari bilimlər fakültələrində akademik və inzibati heyət üzvləri ilə görüşləri mühüm əhəmiyyət kəsb etmişdir. Görüşlərdə universitetlərin uyğun fakültələri arasında qarşılıqlı faydalı əməkdaşlığın potensialı dəyərləndirilmiş, növbəti tədris ilində işbirliyinin daha da gücləndirilməsi məqsədilə yeni fəaliyyət planının hazırlanması barədə müvafiq razılıqlar əldə edilmişdir. Nümayəndə heyəti həmçinin fakültələrdə mövcud tədris şəraiti və infrastrukturu ilə yaxından tanış olmuş, laboratoriyalara baxış keçirmişdir. Bununla yanaşı, Qazi Universitetinin Mühəndislik fakültəsində keçirilən "Məzun günü" tədbirində iştirak, tərəfimizdən gənc məzunlara təbriklərin və ən səmimi arzuların ifadə edilməsi, onlara müvafiq təltiflərin təqdim edilməsi səfərin məzmununu rəngarəng etmişdir.

MDU nümayəndə heyətinin qardaş ölkəyə səfəri Türkiyə Respublikasının yeni təyin olunmuş milli təhsil naziri Yusuf Tekinlə görüşü ilə də əlamətdar olmuşdur. Görüş zamanı yeni təyinat münasibətilə cənab nazirə təbriklər çatdırılmış və ona məsul vəzifəsində uğurlar arzulanmışdır. Eyni zamanda Ankara Hacı Bayram Veli Universitetində rektor olduğu müddətdə MDU ilə əməkdaşlığın inkişafına göstərdiyi dəstəyə görə universitetimizin dostu Y.Tekinə tələbə və müəllim kollektivimiz adından təşəkkür ifadə edilmişdir.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# Mədəniyyət naziri UNESCO-nun Baş direktorunun müavini ilə görüşüb

**İyunun 24-də Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) Baş direktorunun müavini xanım Qabriela Ramosun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində olub.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, əvvəlcə nazir Adil Kərimli səfərin UNESCO ilə ölkəmiz arasında münasibətlərin inkişafına müsbət töhfə verəcəyinə inamını ifadə edib.

Mədəniyyət sahəsində mövcud əməkdaşlıq istiqamətlərindən danışan nazir, bu çərçivədə Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən "Bakı Prosesi" və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının önəmini xüsusi qeyd edib. Qlobal pandemiya ilə əlaqədar yaranmış fasiləyə baxmayaraq, növbəti - VI Forumun 2024-cü ilin may ayında Bakıda keçirilməsi üçün hazırlıq işlərinə artıq başlanıldığı qeyd edilib. Forumun ənənəvi olaraq əsas tərəfdaşlar, o cümlədən UNESCO ilə birgə təşkil edildiyini nəzərə alaraq, növbəti foruma hazırlıq prosesində də təşkilatın müvafiq töhfə verəcəyinə ümid ifadə olunub.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən xanım Ramos mədəniyyətlərarası dialoq sahəsində Bakıda keçirilən forumların önəmini təsdiq edib və növbəti forumda UNESCO-nun fəal iştirak edəcəyinə və dəyişən dünyamıza daha praktik həllər göstərən, müsbət fərqlər yarada bilən müzakirələrlə zəngin olacağına inandığını bildirib. Baş direktorun müavini ölkəmizin UNESCO-nun mədəniyyətlərarası dialoqa həsr olunmuş e-platformasının yaradılmasında, eləcə də İpək yolları proqramı çərçivəsində də təşkilatla fəal əməkdaşlığına və proqramın 35 illiyi münasibətilə bu il keçirilən tədbirlərdə iştirakına görə xüsusi təşəkkür ifadə edilib. Azərbaycanın UNESCO çərçivəsində həyata keçirilən bir sıra layihə və proqramlarda fəallığı ilə seçildiyi təqdir olundu.

Görüşdə digər istiqamətlər üzrə də ikitərəfli əməkdaşlıq məsələləri, həmçinin süni intellekt və müxtəlif müasir texnologiyaların qlobal mədəniyyətə təsirləri, həmçinin bu təsirlərin etik və hüquqi tənzimlənməsi istiqamətində qlobal institusional təşəbbüslər müzakirə edilib.

Baş direktorun müavini Azərbaycanın mədəniyyət nazirini 13 iyul tarixində keçiriləcək və sözügedən mövzuların ətraflı müzakirə ediləcəyi Neyrotexnologiyanın Etikasına dair Beynəlxalq Konfransa, həmçinin noyabrın 29-da San Paolada keçiriləcək İrqçilik və Diskriminasiyaya qarşı Qlobal Foruma da dəvət edib.

# İnam Kərimov Məhkəmə-Hüquq Şurasının sədri seçilib

**İyunun 24-də Məhkəmə-Hüquq Şurasının yeni tərkibdə ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Məhkəmə-Hüquq Şurasının sədrliyinə şuranın üzvü İnam Kərimovun namizədliyi irəli sürülərək səsverməyə qoyulub. Şura üzvlərinin yekdil səsi ilə İnam Kərimov Məhkəmə-Hüquq Şurasının sədri seçilib.**

Göstərilən yüksək etimada görə şuranın üzvlərinə təşəkkürünü bildirən İnam Kərimov qeyd edib ki, əsası Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev tərəfindən qoyulan məhkəmə-hüquq islahatları bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sədr "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının məhkəmə sistemində yeni mərhələnin başlanması kimi qəbul edildiyini diqqətə çatdırıb.

İclasda həmçinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qarşıda duran vəzifələr müzakirə olunub və müvafiq təkliflər verilib.

# Heydər Əliyev adına Hərbi İnstitutda buraxılış mərasimi olub

**İyunun 24-də Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda 2023-cü il üzrə məzun buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, 23-cü buraxılış mərasimi münasibətilə keçirilən tədbirdə Milli Müdafiə Universitetinin və hərbi institutun rəhbərliyi, Müdafiə Nazirliyinin hərbi qulluqçuları, şəxsi heyət, müəllimlər, məzunlar, valideynlər, eləcə də ictimaiyyətin və KİV-in nümayəndələri iştirak ediblər.

Əvvəlcə hərbi institutun qərargahı qarşısında ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi, eləcə də institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının Xatirə kompleksi ziyarət olunaraq qarşısına qızılgüllər qoyulub. Ümummilli Liderin və Vətənimizin müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb.

Mərasimdə hərbi orkestrin müşayiəti ilə Azərbaycanın Dövlət Himni səsləndirilib. Hərbi institutun Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyev təntənəli mərasimdə çıxış edərək əlamətdar gün münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar, xalqımıza, dövlətimizə, qalib Ordumuza və Ali Baş Komandanımıza layiqli zabit olmağı arzulayıb.

Həmçinin gənc zabitləri yaxınlaşmaqda olan 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib. Vurğulanıb ki, Silahlı Qüvvələrimiz, həmçinin institut Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.

General-leytenant Heydər Piriyev çıxışında son illərdə ordu quruculuğunda aparılan islahatların müsbət nəticələrindən, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsindən, eləcə də sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən söz açıb, hərbi institutun zabit və kursantlarının Vətən müharibəsində iştirakından danışıb.

Gənc zabitlər də onlara göstərilən etimadı doğruldacaqlarına, Vətənə, dövlətə və xalqa layiqincə xidmət edəcəklərinə, hərbçi şərəfini hər zaman uca tutacaqlarına söz veriblər. Onlar göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonra Heydər Əliyev adına Hərbi İnstitutu fərqlənmə ilə bitirənlərə diplomlar və hədiyyələr verilib.

Hərbi institutun döyüş bayrağının təhvili və qəbulu mərasimi keçirildikdən sonra yaş kötüyünə rəmzlər vurulub.

Hərbi orkestrin və kursantların ifasında institutun marşı ifa edilib, şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçidi olub.

# REGİONLAR

## Ulu Öndərə ehtiram yenə tərtərliləri bir yerə topladı



Tərtərdə "Heydər Əliyev İli" çərçivəsində YAP rayon təşkilatının və rayon icra hakimiyyətinin təşkilatçılığı və əslən rayondan olan tanınmış ziyalıların iştirakı ilə "Heydər Əliyev ideyaları bu gün də yaşayır və uğurlarımızın rəhnidir" mövzusunda konfrans keçirilmişdir.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini və Şəhidlər Abidə Kompleksini ziyarət etmişlər. Mədəniyyət Mərkəzində davam edən tədbirdə Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən film nümayiş olunmuşdur.

YAP Tərtər Rayon təşkilatının sədri Eldar Əsədov "Heydər Əliyev ideyaları bu gün də yaşayır və uğurlarımızın rəhnidir" mövzusunda məruzəsində Azərbaycanın müasir tarixində Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərinin ictimai-siyasi mahiyyətindən, bu dahi şəxsiyyətin müstəqil Azərbaycanın sosial-iqtisadi və siyasi əsaslarının möhkəmləndirilməsində, dünyanın aparıcı dövlətlərinin etibarlı tərəfdaşına çevrilməsində xidmətlərindən söhbət açmışdır. Tərtər rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov isə çıxışında vurğulamışdır ki, məhz Heydər Əliyevin sayəsində Azərbaycan öz müstəqilliyinə nail olmuş, dünya dövlətləri sırasında öz mövqeyini qoruyub saxlaya bilmiş, üzərinə düşən xilaskarlıq missiyasını şərəflə yerinə yetirmək üçün zamanın bütün ağırlığını öz çiyinlərinə götürərək dövlətimizi dünyanın xəritəsindən silinmək təhlükəsindən, xaos və hərc-mərclikdən qurtarmışdır.

Konfransda YAP İdarə Heyətinin üzvü Asif Əsgərli, Akademik Vaqif Abbasov, Xalq şairi Vahid Əziz, Xalq artisti Teyyub Aslanov da çıxış etmişlər. Bildirmişlər ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq və nə qədər Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev məhəbbətlə, hörmət və ehtiramla yad olunacaq, anılacaq.

Sonra qonaqlara Tərtər Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən fəxri fərman və xatirə hədiyyələri, YAP rayon təşkilatı tərəfindən isə rayonun sosial-iqtisadi həyatında fəal iştirak edən bir qrup partiya fəalına fəxri fərman və YAP sıralarına yeni qəbul olunmuş partiya üzvlərinə vəsiqələr təqdim olunmuşdur.

Sonda əslən Tərtərdən olan Xalq artisti Teyyub Aslanovun və Bərdə Regional Mədəniyyət İdarəsinin tabeliyindəki şəhər və rayonların mədəniyyət işçilərinin iştirakı ilə konsert proqramı nümayiş edilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

### Taxıl biçini

## Çörək halallıq sevir

**Cari təsərrüfat ilində Şabran rayonu üzrə 14685,5 hektarda payızlıq və yazlıq taxıl əkilib. Onun 8167,3 hektarı buğda, yerdə qalanı arpadır.**

İyunun əvvəllərindən arpa biçininə başlanıb. Hələlik məhsuldarlıq pis deyil - hər hektardan 24 sentner. Buğda biçininə isə iyunun ortalarından start verilib.

- Şabran rayonu əsasən dağlıq əraziyə aid edilir, - deyə Şabran Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ənvər Hüseynov bildirir. - Rayonun dağ kəndlərində münbit torpaq şəraiti var. Bu da bizə yüksəkkeyfiyyətli taxıl becərməyə imkan verir. Suya gəlincə, yağış köməyimizə çatır.

Rayonda biçin zamanı ən vacib məsələ təhlükəsizliyin təminatıdır. Əvvəlki illərdə bir neçə dəfə rayonun biçin sahələrində yanğın baş verib. Buna görə də taxılçılar bərəkəti mümkün qədər etibarlı qorumağa çalışırlar. Ə.Hüseynov:

- Ötən il baş verən yanğınlar bizim üçün dərs olub. Biçin başlayandan texniki təhlükəsizlik maşınları sahələrin ətrafına yerləşdirilib. Əlavə olaraq su maşınları ayrılıb və əlaqədar təşkilatlarla mütəmadi danışıqlar aparılır. Rayon rəhbərliyi və Fövqəladə Hallar Nazirliyinin Şabranda əməkdaşları ayrılmış qrafik üzrə növbətçilik edir.

Taxıl biçininə "Aqroservis" ASC-nin 13, hüquqi və fiziki şəxslərin 14 taxılbiçən kombaynı cəlb olunub. Ətraf rayonlardan da texnikalar gətirilib. Quba, Xaçmaz və Qusarda biçin bir qədər gec başlayır. O rayonlarda biçin sürətlənəndə Siyəzən və Şabranda biçin sona çatır. Onda bu rayonlardan texnikalar həmin rayonlara köməyə gedir.

Şabran taxılçıları zəngin təcrübəyə malikdirlər. Qəşəm Həsənov, Vahid Əsədov və Səbirə Vəliyevanın təsərrüfatlarında bu il də bol məhsul yetişdirilib. Kombaynçılar Rəhim Məmmədov, Vüqar Xeyrullayev, Bakir Məmmədov və digərləri bu ərazilərə yaxşı bələddirlər. Deyirlər ki, biçin başlayandan hələlik heç bir problemlə üzləşməyiblər.

- Hava da karımıza yaradı, - deyə Ə.Hüseynov bildirir. - Mayın sonlarından başlayan yağışlar Şabrandan yan keçdi. Bəzi bölgələr kimi, leysan düşsəydi, kombaynlar sahəyə girə bilməyəcəkdi. Şükürlər ki, belə problem yaşamadıq. Yəqin təbiət də zəhmətkeş insanlara qayğıkeşliyini belə göstərir.

Rayonda "Qobustan", "Elit", "Azəri-95" və digər sort buğda əkilir. Mütəxəssislər həmin sortların Şabranda məhsuldarlığının yüksək olduğunu vurğulayırlar. Rayonun iqlimi bu sortların becərilməsi üçün əlverişlidir. Dağbilici, Rəhimli, Əmirxanlı kəndlərində yüksəkkeyfiyyətli buğda əldə edilib.

Şabranda bərəkət biçini davam edir. Gələcək ruzi isə bərəkətdən başlayır. Şabranlılar bərəkəti halallıqla qazanan insanlardır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



## ASF təsərrüfatlara dəymiş zərəri müəyyənləşdirir

**Son günlər ölkə ərazisində havaların qeyri-sabit keçməsi nəticəsində kənd təsərrüfatı sahələrinə dəymiş zərərlə bağlı Aqrar Sığorta Fonduna (ASF) daxil olan müraciətlərin sayı artıb.**

Yağan leysan yağışları, sel-subasma, güclü külək, dolu hadisələri nəticəsində fermer təsərrüfatlarına ziyan dəyib. Ötən dövr ərzində əsasən Ağdam rayonu ərazisində buğda, arpa, pambıq sahələrinə dolu düşməsi, güclü küləyin ağacları sahələrə aşırması ilə bağlı məlumat verilib. Təbiət hadisələrindən Gədəbəy, Daşkəsən, Tovuz, Gəncə, Göygöl, Naftalan, Yevlax, Qusar, Quba, Goranboy, Şabran, Şəki, Qax, Cəlilabad rayonlarının fermerləri də zərər çəkib. Güclü külək, leysan, subasma, dolu düşməsi nəticəsində xeyli sayda təsərrüfata ziyan dəyib.

Qeyd edək ki, ölkə üzrə daha çox müraciət Şəki-Zaqatala, Dağlıq Şirvan və Qarabağ iqtisadi rayonlarından daxil olub. Müraciətlər fırtına və dolu kimi sığorta predmetləri ilə bağlıdır. Ümumiyyətlə, ilin əvvəlindən ASF-yə 900-dən çox müraciət daxil olub ki, bunun da yarıdan çoxu may-iyun aylarında qeydə alınıb.

Hazırda ASF tərəfindən ölkə üzrə 400 000 hektar əkin ərazisi sığortalanıb. Fonddan verilən məlumata görə, baş verən hadisələrlə bağlı müstəqil aqrar sığorta ekspertləri bölgələrə ezam olunublar. Hazırda dəymiş zərərin qiymətləndirilməsi prosesi davam edir. Payızlıq və yazlıq əkinlərin biçin dövrü olduğu üçün öncədən zərər görmüş əkin sahələrində də yekun qiymətləndirmə aparılır. Bu proses yekunlaşdıqdan sonra fermerlərə dəymiş zərərlər ödəniləcək.

## Goranboyda şəhid ailələrinə diqqət böyükdür

Vətən müharibəsindəki tarixi qələbəmizdən müəyyən vaxt keçməsinə baxmayaraq, xalqımız həmin zəfəri bizə bəxş edənləri unutmur. Bu da təbiidir. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 il işğal altında qalmış torpaqlarımızı məhz onlar düşməndən azad etmişlər.



Belə oğullardan biri də Goranboyun Şəfəq kəndinin yetirməsi şəhid Qurbanov Yusif Asif oğludur. 1998-ci ildə dünyaya göz açan Yusif orta məktəbi bitirəndən sonra Xüsusi Təyinatlı Qoşunların tərkibində gizir kimi qulluğa başlamış, Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində ermənilər tərəfindən törədilən təxribatların qarşısının alınmasında fədakarlıqla döyüşmüşdür. Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə ağır yaralanmışdır. Həkimlərin səyinə baxmayaraq, Yusif Qurbanov dünyasını dəyişmişdir. Ölümündən sonra Prezidentin sərəncamı ilə o, "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Digər şəhidlər kimi Yusif Qurbanovun da göstərdiyi qəhrəmanlıqlar unudulmur. Rayon rəhbərliyi tez-tez onun ailəsində olur, valideynlərinin problemləri ilə maraqlanır. Elə bu yaxınlarda növbəti görüş zamanı məlum olmuşdur ki, şəhidin atası Asif Qurbanovun müalicəyə ehtiyacı var. Rayon icra hakimiyyətinin dəstəyi ilə şəhid atası Bakıya - Mirqasımov adına Respublika Klinik Xəstəxanasına göndərilmiş və orada müalicə olunmuşdur. Asif Qurbanov artıq evində, ocağının başında, ailəsinin üstündədir.

## Şəmkirdə Milli Qəhrəmanın büstü açılmışdır

Şəmkir rayonunun Kür qəsəbəsində Azərbaycanın Milli Qəhrəmanı, şəhid İsgəndər Aznaurovun onun adını daşıyan 1 nömrəli tam orta məktəbin qarşısında büstünün açılışı olmuşdur.

Mərasimdə Şəmkir rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev, Milli Məclisin deputatı Qənirə Paşayeva, Dünya Ahıska Türkləri Birliyinin nümayəndələri, Türkiyənin Gəncədəki Baş Konsulluğunun əməkdaşları, Milli Qəhrəmanın ailə üzvləri, şəhid ailələri və qazilər, eləcə də İsgəndər Aznaurovun döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Çıxış edənlər əslən ahıska türkü olan, el arasında "Topçu İsgəndər" kimi tanınan İsgəndər Aznaurovun döyüş yolundan danışmış, onun Birinci Qarabağ müharibəsində topçu olaraq göstərdiyi qəhrəmanlıqlarından söz açmışlar. Diqqətə çatdırılmışdır ki, İsgəndər Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara vilayətində anadan olmuşdur. 1980-ci illərin sonlarında Fərqanədə milli zəmində baş verən məlum hadisələrdən sonra bir çox ahıska türkləri kimi onların ailəsi də Azərbaycana pənah gətirmiş və Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşmışdır. 1992-ci ildən Azərbaycan Ordusunda könüllü olaraq zabit kimi xidmət edən İsgəndər Aznaurov Gədəbəy rayonunun Şınıx bölgəsində erməni quldur dəstələrinə qarşı mərdliklə vuruşmuş,



Mutudərə, Ər dağı, Ləzgi daşı və digər strateji yüksəkliklərdə şücaət göstərmişdir. Bu döyüşlərin birində, 1993-cü ildə şəhid olan İsgəndər Aznaurova yalnız iki il sonra Heydər Əliyevin sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. Dövlətimiz İsgəndər Aznaurovun xidmətlərini yüksək qiymətləndirmiş, yaşayış məntəqəsinə, küçəyə və məktəbə onun adı verilmişdir. Vaxtilə onun döyüşdüyü səngər bu gün "İsgəndər qalası" adlanır.

Mərasimdə Milli Qəhrəmanın ailə üzvləri çıxış edərək göstərilən diqqətə görə təşəkkür etmiş, bu gün də Azərbaycan əsgərinin hər qələbə sorağından qürurlandıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ərzaqlıq buğdanın hər tonunun dövlət tədarük qiyməti 450 manat müəyyənləşib

Prezidentin ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə qəbul etdiyi "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli fərmanının icrası istiqamətində işlər davam edir.

Fərmanın 2.3-cü bəndinin icrasını təmin etmək üçün ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyinin Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq "Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyənləşdirilməsi barədə" sərəncam qəbul edib.

Sərəncama əsasən, Nazirlər Kabineti 2009-cu il 7 iyul tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsində qeyd edilən keyfiyyət göstəricilərinə uyğun yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti 2023-ci il üçün 450 manat müəyyən edilib.

Qeyd edək ki, "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunmuş və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilmiş ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödəniləcək.

## Astara kivisi

2017-ci ildə təsis olunmuş "Şibagro" MMC bir il sonra ümumi sahəsi 14 hektar olan kivi bağı salmışdır. Türkiyə və İtaliya mütəxəssislərinin təlimat və tövsiyələrinə uyğun olaraq bağda torpaq əkin üçün tam hazır vəziyyətə gətiriləndən sonra yeni üsullarla GOLDEN Hayvard növü olan kivi tingləri əkilmiş, müasir suvarma sistemi çəkilmiş və digər aqrotexniki işlər görülmüşdür.



Kivi ağacı əkildikdən 3 il sonra məhsul verməyə başlayır. 5-ci ildən sonra tam məhsuldar vəziyyətə gəlir. Hazırda sözügedən bağda hər hektardan 30-35 ton məhsul yığmaq olur. Yığılan məhsullar əsasən MDB ölkələrinə satılır. Təsərrüfatda daimi olaraq gündəlik 11 nəfər, məhsul yığımı vaxtı isə əlavə olaraq 60 nəfərdən çox günəmuzd fəhlə çalışır.

Ümumiyyətlə, Astara aqrar rayon olmaqla torpaqları məhsuldar və bərəkətlidir. Rayonun iqlimi burada tərəvəzçilik, çəltikçiliklə yanaşı, çoxillik əkmələr olan çayçılıq və bağçılığın inkişafı üçün də əlverişlidir. Yeni salınan intensiv bağların hər hektarına görə nəzərdə tutulan dövlət yardımları və subsidiyalar isə bu sahənin genişləndirilməsinə şərait yaratmışdır. Damcı suvarma sistemi ilə təmin olunmuş kivi bağlarının salınması üçün hər hektara görə 9 min manat və ilk 4 il ərzində 640 manat əkin subsidiyasının verilməsinin nəticəsidir ki, rayonda kivi bağlarının ümumi sahəsi 150 hektara çatmışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## "Qazax Aqropark"da bol məhsul yetişdirməmək mümkün deyil

Qərb bölgəsində aqrar sektorun inkişaf etdiyi əsas rayonlardan biri də Qazaxdır. Son dövrlər rayonda yeni kənd təsərrüfatı müəssisələri, o cümlədən aqroparklar yaradılır.

"İnvestel GROUP" MMC tərəfindən rayonun İkinci Şıxlı kəndində yaradılan "Qazax Aqropark"ın Qazaxın sosial-iqtisadi inkişafında sanballı payı var. Çoxsaylı iş yerlərinin yaradıldığı təsərrüfatda bu il də bol məhsul yetişdirilmişdir. Məlumat üçün bildirək ki, cari mövsüm aqropark üzrə 384,8 hektarda kartof, 178 hektarda arpa, 214,88 hektarda buğda əkilmişdir.

Bəri başdan qeyd edək ki, aqroparkda bol məhsul istehsalı üçün bütün şərait yaradılmışdır. Məsələn, sahələrin suvarılması üçün uzunluğu 13,5 kilometr olan 520 millimetrlik metal borularla su xətti çəkilmişdir. Sahədaxili suvarmada isə 18 kilometrlik yeraltı suvarma xətlərindən istifadə olunur. Bundan başqa, aqropark daxilində sahəsi 1600 kvadratmetr olan anbar, tutumu 2670 ton olan çoxfunksiyalı soyuducu anbar inşa edilmiş, sahəsi 463 kvadratmetr olan ikimərtəbəli inzibati bina tikilmiş, texnikaların təmiri və saxlanılması üçün 608 kvadratmetrlik talvar quraşdırılmışdır. Ərazidə tərəzi, yeməkxana binası, gözətçi otağı, əlavə qurğular da var. Bunlardan əlavə, aqroparka 13,2 kilometr uzunluğunda elektrik hava verilişi xətti çəkilmiş, müxtəlif güclü 4 transformator, 2-ci və 3-cü pilləli nasos stansiyalarına suyun vurulması üçün isə 3 nasos quraşdırılmışdır. Aqroparkın su təminatında da



problem yoxdur. Belə ki, Xram çayı sahilində 1-ci pillə nasos stansiyası və suqəbuledici inşa edilmiş, çayın kənarında ərazi boyu sahilbərkitmə işləri aparılmışdır. Sahələrdə 2-ci pillə və 3-cü pillə nasos stansiyaları inşa edilərək istismara verilmişdir. Torpaqların daimi su ilə təmin etmək üçün 2-ci və 3-cü pillə nasos stansiyalarının yanında hər birinin həcmi 4500 kubmetr olan 2 su anbarı inşa edilmişdir.

Hazırda aqroparkın 100 nəfərlik daimi, 700 nəfərlikə mövsümi işçilərdən ibarət olan kollektivi məhsul yığımı ilə məşğuldur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC qərb regionunda yenidənqurma işlərini davam etdirir

**Samux rayonunun 3 kəndinin elektrik şəbəkəsi yenidən qurulur.**

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq regionlarda yenidənqurma işləri davam etdirilir. "Azərişıq" ASC bu dəfə Samuxun Qədili, Seyidlər və Sarıqamış kəndlərində işlərə başlayıb.

İstismar müddətini başa vurmuş 10 və 0,4 kV-luq elektrik xətləri, dayaqlar və bütün güc mərkəzləri yenilənir. Üç kənddə ümumilikdə 10 KTM quraşdırılıb və abonentlərin bütün sayğacları yenisi ilə əvəzlənib.

Bununla yanaşı, Prezident İlham Əliyevin müvafiq göstərişlərinə əsasən "Azərişıq" ASC Gədəbəyin ucqar Arısu və Əlinağılar kəndlərində də elektrik şəbəkələrini yenidən qurur. Ötən əsrin 50-60-cı illərində qurulmuş köhnə şəbəkə yenidənqurma layihəsi çərçivəsində tam yenilənir. Elektrik xətləri izoliyasiyalı naqillərlə əvəzlənir, köhnə dayaqlar, sayğaclar və həmçinin bütün güc mərkəzləri tam yenilənir.

Hədəf adıçəkilən kəndlərdə işləri mümkün qədər tez zamanda yekunlaşdırmaq və bununla da itkilərin qarşısını almaq, həmçinin abonentlərin dayanıqlı, keyfiyyətli elektrik enerjisi ilə təminatını həyata keçirməkdir.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.

# Söyüdlü kənd sakinlərinin tibbi müayinələri təşkil edilib








**Gədəbəyin Söyüdlü kəndində əhalinin sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə səhiyyə orqanları tərəfindən Söyüdlü kənd sakinlərinin tibbi müayinələri təşkil edilib.**

Gədəbəy Rayon Mərkəzi Xəstəxanasının 16 nəfərdən ibarət tibbi briqadası tərəfindən Söyüdlü həkim tibb məntəqəsində yerli sakinlərin tibbi müayinələri aparılır.

Həkim briqadasının tərkibinə terapevt, kardioloq, pediatr, lor, cərrah, nevroloq, psixiatr, ultrasəs və laborator xidmətlər üzrə mütəxəssislər daxildir.

İndiyədək müayinədən keçmək üçün müraciət edən 30 nəfərədək vətəndaşın hər biri zəruri laborator və instrumental müayinələrdən keçirilib və onlarda xüsusi patologiyalar aşkar edilməyib.

# III Avropa Oyunları

## Boksçumuz 1/8 finalda



Azərbaycan boksçusu Murad Allahverdiyev Polşada keçirilən III Avropa Oyunlarına qələbə ilə başlayıb. 80 kq-da çıxış edən yığma üzvü 1/16 finalda almaniyalı Kevin Şumannla qarşılaşıb. Döyüş Allahverdiyevin qələbəsi ilə yekunlaşıb. İlk 2 raundu aktivinə yazan boksçu 3-cü hissədə tam üstünlüklə qalib gəlib.

O, 1/8 final döyüşünə iyunun 26-da çıxacaq.

54 kq-da çıxış edən Zeynəb Rəhimova isə 1/16 finalda rumıniyalı Lenuta Periyoça uduzaraq yarışla erkən vidalaşıb.

## Uğurlu başlanğıc



Atıcılıq üzrə qadınlardan ibarət Azərbaycan yığması Polşada keçirilən III Avropa Oyunlarının təsnifat mərhələsində çıxış edib. Stend atıcılığının skit növündə Regina Meftahəddinova 75 hədəfdən 70-ni dəqiq nişan alıb. Nurlana Cəfərova isə 75-dən 67 hədəfi dəqiq vurmağı bacarıb.

İyunun 25-də təsnifatın ikinci günündə daha iki dövrədə mübarizə davam edəcək. İlk səkkiz pillədə qərarlaşacaq idmançılar finala vəsiqə qazanacaqlar.

İyulun 2-dək davam edəcək III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın idmançı mübarizə aparır. İdmançılar 29 növ üzrə 253 dəst medalın sahibini müəyyənləşdirəcək. Azərbaycan "Krakov-2023"də 13 növ üzrə 86 idmançı ilə təmsil olunur.

## Cavad Ağayev uduzdu



Azərbaycan taekvondoçusu Cavad Ağayev üçün III Avropa Oyunları uğursuz başa çatıb. 68 kq çəki dərəcəsində çıxış edən idmançımız 1/8 final mərhələsində Konstantinos Camalidislə (Yunanıstan) üz-üzə gəlib. Rəqibinə 1:2 hesabı ilə uduzan təmsilçimiz mübarizəni dayandırıb.

Qeyd edək ki, daha əvvəl taekvondoçulardan Səyyad Dadaşov (54 kq) gümüş, Qaşım Maqomedov (58 kq) bürünc medal əldə ediblər.

## Fidan Əlizadə çempion olacağına inanır



"Polşadan qızıl medalla qayıtmaq istəyirik". Bunu Azərbaycan cüdoçusu Fidan Əlizadə Polşada keçirilən III Avropa Oyunları barədə Milli Olimpiya Komitəsinin Mətbuat xidmətinə açıqlamasında deyib. 57 kq çəki dərəcəsində çıxış edən idmançı yığmanın Polşada çempionluğu hədəflədiyini söyləyib. F.Əlizadə şəxsi karyerası ilə bağlı ən böyük məqsədini də bildirib: "Bu, mənim ilk Avropa Oyunlarımdır. Polşada uğurlu çıxış etməyə çalışacağıq. Komandamla birlikdə ölkəmizi layiqincə təmsil etmək istəyirik. O ki qaldı ən böyük hədəfimə, hər bir idmançı kimi məqsədim olimpiya çempionu olmaqdır".

Qeyd edək ki, III Avropa Oyunlarında cüdo üzrə komandalararası yarış iyulun 1-də keçiriləcək.

## Avropa Oyunlarında qalmaqal yaşanıb

Polşalı yüngül atlet Klaudiya Kardaş Polşada keçirilən Avropa Oyunlarında nüvə itələmə yarışında ən yaxşı cəhdinin ləğv edilməsinə münasibət bildirib. Kardaş sektorun səhv işarələnməsi səbəbindən zərər çəkib. Birinci divizionda komanda yarışı ləngimə ilə başlayıb, sonra isə ümumiyyətlə dayandırılıb. Fakt budur ki, atlet ilk cəhddə 18,56 m nəticə göstərib. Bu, onun şəxsi rekordundan bir qədər azdır, lakin bu mövsüm polşalı idmançı mərmini 17,39 m-dən uzağa göndərməyib. Növbəti bir neçə idmançı da öz nailiyyətlərini üstələyib. Bundan sonra təşkilatçılar sektoru ölçməyə, nəticələri sıfırlamağa və yarışa yenidən başlamağa qərar veriblər.

"Əvvəlcə avadanlıq səhv quraşdırılıb və yenisi ilə dəyişdirilib. Sonra yenə nəsə dəyişdi. Çox təəssüf edirəm, çünki ölçmədən asılı olmayaraq, ilk cəhdim hələ də ən yaxşısı idi. Mövsümün ən yaxşı nəticəsi idi, əminəm. Bununla belə, mən uğurumdan məhrum oldum. Məni aldatdılar. Təxminən 17,5 metr nəticə idi. Fərqi ölçmək və nəticədən çıxmaq istəmədilər. Bu, məni çox qəzəbləndirdi", - deyə Kardaş bildirib.

# İçərişəhərdə başlayan "Muğam Marafonu" gecə saatlarında da maraqla dinlənilir




**"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyunun 24-də İçərişəhərdə Şirvanşahlar Sarayında "Muğam Marafonu" layihəsi başlayıb.**




AZƏRTAC xəbər verir ki, bu dəfə layihədə tanınmış xanəndələrimiz və elektronik musiqiçilərin ifaları səslənib.

İyirmi dörd saat ərzində keçirilən layihənin hər saatında eyni məkanda 24 xanəndə bir-birini əvəzləyir və onları müşayiət edən heyətlə birgə muğam ifa edirlər. "Muğam Marafonu"nda xanəndələrlə yanaşı, bir-birini əvəz edən 25 elektron musiqiçi də çıxış edir.

"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunan "Muğam Marafonu" dinləyicilər üçün bir gün ərzində dayanmadan muğamın ecazkar dünyasına bir səyahətdir.

Festivalla bağlı fikirlərini AZƏRTAC-a bölüşən Əməkdar artist Təyyar Bayramov deyib: "Bu gün musiqi bayramıdır. Artıq 6-cı Beynəlxalq Musiqi Festivalı, demək olar ki, ölkəmizdə sona yaxınlaşır. İyunun 18-də festivalın möhtəşəm açılışı oldu. Bir gün sonra bizim Daş Salnamə Muzeyində konsertimiz də keçirildi. Festival çərçivəsində ölkəmizin demək olar ki, hər bir guşəsində konsertlər təşkil edilir, eyni zamanda müsabiqə də keçirildi. Mənim üçün xoşdur ki, tələbəm Mirəli Sarızadə müsabiqədə birinci yerə çıxdı. Bizim digər iştirakçımız, gənc xanəndə Daşqın Kürçaylı ikinci yerə layiq görüldü. Mən onların hamısını təbrik edirəm".

Bugünkü ifası ilə bağlı danışan Əməkdar artist bildirib: "Bu gün gecədə, demək olar ki, bir çox xanəndəmiz iştirak edəcək. Mən də sənət dostlarım - Rəşad İbrahimov, Təbriz Yusubov, Vüsal Bayramovla birlikdə şur muğamı və dəstgahını ifa etdim. Auditoriya bizi çox gözəl qarşıladı".

Qeyd edək ki, "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi və himayəsi altında keçirilir.

# "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalının Şuşada konsert proqramları yekunlaşıb

**İyunun 23-də "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı Azərbaycanın mədəniyyət paytaxtı Şuşada müxtəlif konsert proqramları ilə davam edib.**






AZƏRTAC xəbər verir ki, Şuşanın müxtəlif məkanlarından, mədəni və qədim tarixi abidələrinin yerləşdiyi ərazilərdən muğam sədaları eşidilib. Eyni vaxtda Şuşadakı Yaradıcılıq Mərkəzinin və Xurşidbanu Natəvanın evinin qarşısında, həmçinin Bülbülün ev-muzeyində, eləcə də "Qarabağ" otelinin qarşısındakı parkda konsert proqramları təqdim olunub.

Festival çərçivəsində ilk konsert Şuşadakı Yaradıcılıq Mərkəzində təşkil edilib. Konsert proqramında tanınmış müğənnilər Nəzakət Teymurova "Bayatı-Şiraz", Firuz Səxavət "Mahur-Hindi", Cabir Abdullayev "Zabul-Segah" dəstgahlarını, Nuriyyə Hüseynova "Çahargah" kompozisiyasını ifa ediblər.

Növbəti konsert proqramı Xurşidbanu Natəvanın evinin qarşısında keçirilib. Proqramda İlkin Əhmədov, Gülyaz Məmmədova, Almaz Orucova, Gülüstan Əliyeva çıxış ediblər.

Daha sonra Bülbülün ev-muzeyində və "Qarabağ" otelinin qarşısındakı parkda konsert proqramı təşkil olunub. Proqramda sevimli ifaçılar Gülyanaq Məmmədova, Mələkxanım Əyyubova, Mənsum İbrahimov, Simarə İmanova, Qəzənfər Abbasov, Mütəllim Dəmirov, Gülnar Qüdrətli "Xudayar" təsnifi, "Bayatı-Şiraz", "Segah", "Mahur" və digər muğam və təsniflərimizi, xalq mahnılarımızı təqdim ediblər.

Festival iştirakçıları, həmçinin digər ölkələrdən gəlmiş qonaqlar Şuşa şəhərində tarixi-mədəni abidələrimizlə tanış olublar. Əvvəlcə qonaqlar Şuşa qalasına ekskursiya ediblər. Sonra Üzeyir bəy Hacıbəylinin heykəli, Xalça Muzeyi, Mir Möhsün Nəvvab Qarabağinin ev-muzeyi və Gövhər ağa məscidinə baş çəkiblər. Onlara Şuşada aparılan yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb.

Türkiyə Beynəlxalq Ənənəvi Musiqi Şurasının Türkdilli Dünya Musiqisi üzrə tədqiqat qrupunun sədri Abdullah Akat AZƏRTAC-a festivaldan məmnunluğunu dilə gətirib. "Şuşa bizim üçün çox önəmli və dəyərli bir yerdir. Türk mədəniyyəti paytaxtında olmaqdan qürur duyuram. Şuşa gözəl şəhərdir. Təbiəti, havası insanı valeh edir. Muğam Azərbaycan üçün çox dəyərlidir. Biz də bu günlərdə Bakıda keçirilən muğam müsabiqəsi üzrə birgə çox işlər gördük və layiqli qaliblər seçdik", - deyə A.Akat vurğulayıb.

## Mərkəzi Bankın məlumatı

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 24 iyun 2023-cü il tarixli qərarı ilə "Günay Sığorta" Açıq Səhmdar Cəmiyyətinə sığorta fəaliyyətinə verilmiş 14 avqust 2008-ci il tarixli 042483 nömrəli lisenziya ləğv edilmişdir.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutunun direktoru professor Mürsəl Əliyev ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimova anası **HƏMAYİL XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi I Uşaq xəstəlikləri kafedrasının müdiri, professor **SƏFİXAN HƏSƏNOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə əzizi **HÜSEYN MƏMMƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5784
Sifariş 1553

Qiyməti 40 qəpik